TBİLİSİ-2020

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს
მუსლიმთა სამმართველოს
სამეცნიერო საბჭოს ინიციატივით და რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə nəşr olunub.

**Kitabın orijinal adı:**

Peygamberimizin Yakınları HANIM SAHABİLER

**Müəllif:**

Mustafa ERİŞ

**Nəşrə Hazırlayanlar:**

t.f.d Abbas QURBANOV
Hacı BƏKİROĞLU

**Anadolu türkcəsindən
Azərbaycan türkcəsinə uyğunlaşdıran:**

Eldar KƏRİMOV

**Bədii redaktor:**

Ömər QURBANOV

**Dizayn:**

Rəhman NURİYEV
Elsəvər ƏHMƏDOV

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო
მადლობას უხდის საქართველოს ახალგაზრდობის
დახმარების და საგანმანათლებლო საზოგადოებას წიგნის
გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatına təşəkkür edir.

Esma Oniani st, Tbilisi, Georgia,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E-mail: info.amag77@gmail.com

შუამავლის ნათესავები

# ქალი სეჰაბეები

PEYĞƏMBƏRİMİZİN QOHUMLARI

# XANIM SƏHABƏLƏR 2

Mustafa Eriş

მუსტაფა ერიშ

Ya Peyğəmbər!

Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqları, oğurluq və zina etməyəcəkləri, övladlarını öldürməyəcəkləri (qız uşaqlarını diri-diri torpağa gömməyəcəklərini), özgə kişilərdən olan uşaqlarını yalandan ərlərinə isnad etməyəcəkləri və heç bir yaxşı (bəyənilən) işdə sənin əleyhinə çıxmayacaqları barədə sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onların bağışlanmasını dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Mumtəhinə, 60/12)

# Ön Söz

Allaha həmd və Hz. Peyğəmbər ﷺ əfəndimizə, onun ailəsinə və əshabına salat və salam edirəm.

Xoşbəxtlik əsrinin insanlarını bu günümüzə daşımaq, onların xoşbəxtlik şərbətindən doyunca içmək hər bir mömin üçün bir hədəf və qayə olmalıdır. Çünki onlar ilahi vəhyin işığında yetişən hidayət rəhbərləridir.

Sevimli Peyğəmbərimizin qarşısında tərbiyə olunan bu xoşbəxt insanlar onun nurundan feyz alaraq könüllərini və cəmiyyətlərini işıqlandıran ulduzlara çevrilmişdilər.

**“Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur.”** (Nisa, 80) ayəsini özlərinə düstur edərək hamısı birlikdə imanları yolunda mallarından və canlarından keçərək ümmətin yolunda yanan çıraq olmuşdular.

Xoşbəxtlik əsrinin insanları, ilahi vəhyin işığında və Rəsulullahın ﷺ hüzurunda böyüyən xoşbəxt insanlardır. İstər qadın, istər kişi, istər cavan, istər qoca olsun onların hər biri bir hidayət rəhbəri olan ulduzlardır.

Kim onlardan birinə tabe olub, onların izindən gedərsə doğrunu tapmış olar. Pisliklərdən uzaqlaşaraq, yaxşılıq və gözəllikləri əldə edər.

Onlar imanlarında dözüm göstərib ümmətə ən gözəl nümunə olan, Rəsulullahın sevgisində əriyən, *“O sağ olduqdan sonra bütün fəlakətlərin həlli asandır”* deməyi bacaran bir qəlbə sahib olan igidlərdir.

Onların həyatlarından nümunələri oxumaq, onların ruhi dərinliklərini, sədaqət və təslimiyyətlərini, şücaət və qəhrəmanlıqlarını öyrənmək hər bir mömin üçün ən böyük zövq olmalıdır.

İslamın ilk xanım şəhidi *Hz. Sümeyyə* رضي الله عنها ilə başlayan kitab, İslama qarşı kin və intiqam hissi ilə yaşayan *Hindin* müsəlmanlıq hekayəsindən ibarət səhnələri, onun kin və intiqam duyğularının əriyərək Haqqa təslim olmasını əhatə etmişdir.

Həyat yoldaşı İkrimənin İslama girməsi üçün Rəsulullahdan ﷺ möhlət alıb çöllərə düşən *Ümmü Hakimin* İslamı təbliğ etmək cəhdləri də bu kitabda yer almışdır.

Eyni zamanda bu kitabda Əbu Cəhlə meydan oxuyan cariyə Zinnirə Xatunun sədaqəti, “O sağ olduqdan sonra bütün fəlakətlərin həlli asandır” deyə bilən məhəbbət sahibi xanım səhabələr, Sümeyra xatunlar və digər iman ərlərinin həyat hekayələri haqqında məlumat verilmişdir.

Rəbbimizdən xoşbətlik əsrinin, xoşbəxt insanlarıyla bizləri xoşbəxt etməsini, onların qəlb gözəlliklərindən, ruhi dərinliklərindən pay almağı və şəfaətlərinə nail olmağı diləyirik.

Cəhd bizdən, kömək Uca Allahdandır.

*İslamın İlk Şəhid Xanımı*

# Həzrət Sümeyyə

*radiyallahu anhə*

Həzrəti Sümeyyə رضي الله عنها İslamda ilk şəhid olan xanım səhabə və Ammar İbni Yasirin رضي الله عنه anasıdır.

Ailəliklə müşriklərin işgəncələrinə məruz qalmalarına baxmayaraq, imanlarından üz döndərməyən hər biri dağlar kimi uca iman sahibidir.

Həyat yoldaşı Yasir və oğlu Ammar ilə birlikdə Allah və Rəsulu yolunda can verməyi, bütlərin adlarını dilə gətirməkdənsə şərəflə ölməyi gözə almış igidlərdir.

Şirkə düşməmək üçün çırpınan, əziyyət və cəfalara səbrlə dözən mömin bir ailədir.

İslamın ilk cəfakeş ailəsidir. Allah və Rəsulu yolunda can verən ilk şəhidlərdir.

Sümeyyə binti Habbat, Məhzum oğullarından Əbu Huzeyfə İbni Muğirənin cariyəsi idi. Xidməti ilə özünü sevdirmişdi. Əbu Huzeyfə onu Yasir ilə evləndirdi.

Yasir Yəməndən Məkkəyə gələn və Əbu Huzeyfəyə sığınaraq yanında işləyən bir gənc idi. Uşaqları olduğu zaman Yasiri azad etdi.

Bu evlilikdən böyük səhabi Ammar İbni Yasir رضي الله عنه dünyaya gəldi.

İslamın ilk günlərində bu bəxtiyar ailənin fərdlərinin hər biri İslamla şərəflənərək iman fədaisi oldular. Azğın müşriklərin ağla sığmaz işgəncələrinə məruz qaldılar.

Onlar Məkkədə onları qoruyacaq kimsələri olmadığı üçün ən çətin və şiddətli işgəncələrlə üzləşdilər.

Başda Məhzum oğlulları olmaqla Qureyş müşriklərinin ən ağır zülmləri altında əzab çəkdilər. Günəşin ən şiddətli olduğu günorta vaxtında, qızğın qumlar üzərində, canilər tərəfindən dəvələrə bağladılaraq sürükləndilər.

Qızğın közlər üzərindəki qayalarla bədənlərini dağladılar. Bütün bu zülmlərə baxmayaraq o igid möminləri əsla imanlarından geri döndürə bilmədilər.

İslamın ilk cəfakeş ailəsi Yasir, Sümeyyə və oğulları Ammar ﵃ imanda səbat və dəyanətin ən gözəl nümünəsini verdilər.

Canları bahasına olsa da, Allaha və Rəsuluna inanmağın böyük bir güc və səadət qaynağı olduğunu həyatılarıyla isbat etdilər. İman cövhərinin insana qazandırdığı mübarizə şüurunu, əziyyətə və cəfalara dözərək, müqavimət göstərərək, səbir edərək göstərdilər. Nəhayət uca iman sahibi bir bəxtiyar mömin olaraq ər-arvad birlikdə inancları uğrunda şəhid edildilər.

Yasir ﵁ ilə Sümeyyə ﵂ İslamın ilk şəhidləri olaraq tarixin şərəf səhifələrinə düşdülər.

Yasir ailəsinin həyatında bizlər üçün və gələcək möminlər üçün imanı qoruma mövzusunda necə ibrətli səhnələr, necə üfüq açıcı hədəflər vardır.

Budur onlardan bir nümunə:

Bir gün Hz. Peyğəmbər ﷺ bu qəhrəman ailəyə işgəncə edilən yerə getdi.

Uzaqdan Rəsulullahın ﷺ gəldiyini gördükləri zaman bütün ağrı-acılarını unudaraq Ona tərəf baxmağa başladılar.

Sanki Onu qarşılamaq istəyərcəsinə gözlərini Ondan ayırmadılar.

Edilən işgəncələrə məhəl qoymadan Onu görməyin sevinciylə fərəhləndilər. Ancaq O sevgilini qarşılaya, Ona sarıla və Onun əllərindən öpə bilməməyin iztirabıyla yandılar. Əlləri və qolları bağlı olduğu üçün qalxa bilmədilər.

Peyğəmbər Əfəndimiz ﷺ onların yanına yaxınlaşıb salam verdiyi zaman sanki ağrı-acıları bir anda səngimişdi.

İki Cahan Günəşi Peyğəmbər Əfəndimiz ﷺ onları qəmli-qəmli gözləri ilə süzdü. Sözləri ilə daralan dünyalarını genişlətdi. Onlara uca hədəflər və gözəl üfüqlər nişan etdi. Onlara cənnəti hədəf göstərdi.

Sevgili Peyğəmbərimiz bu iman və səbir qalası olan igid insanlara; müqavimətlərini artıracaq, imanlarını qoruma mövzusunda səbir və dözüm gücü verəcək, çəkdikləri əziyyət və cəfalara qarşı təsəlli və təskinliyə vəsilə olacaq bu müjdəni verdi:

*“Səbir edin ey Yasir ailəsi! Səbir edin ey Yasir ailəsi! Sizi cənnətlə müjdələyirəm”.* buyurdu.

İslamın ilk cəfakeşlərinə əbədi qalacaqları yurdu yəni cənnəti vəd edərək, Darussalamı-salamatlıqla qalınacaq yeri hədəf olaraq göstərdi.

Amma insan acizdir. Zəif yaradılmışdır. Günlər həmişə belə işgəncə altındamı keçəcəkdi. Yasir رضي الله عنه böyük bir təslimiyyət içərisində yenidən:

-"Ya Rəsulallah! Vaxt həmişə beləmi keçəcək? deyə soruşdu.

Şəfqət Peyğəmbəri Əfəndimizin də ürəyi sızlayırdı. Onlara edilən işgəncəni özünə edilmiş kimi hiss edirdi. Ancaq bəşər olaraq bir mücadilə verilməli idi. Onlara səbir tövsiyə etdi. İnanclarını mühafizə etmələri üçün müqavimət göstərmələrini istədi və:

*-"Allahım Yasir ailəsinə rəhmət və məğfirətini ehsan et!"* deyə dua etdi. Onlarlı ancaq bu şəkildə təsəlli etməyə çalışdı.

❁

Aradan bir neçə gün keçmişdi. İşgəncələr davam edirdi. Yasir رضي الله عنه yaşlı idi. Edilən əziyyət və cəfalara dözə bilmədi və ruhunu təslim etdi.

Allah və Rəsulu yolunda, iman mücadiləsində kişilərdən ilk şəhid olma bəxtiyarlığı onun nəsibi oldu.

Əbu Cəhlin əmisi Əbu Hüzeyfə, Yasirin şəhadətindən sonra bütün qisasını Sümeyyə və oğlundan almaq istədi. Ancaq əldən düşmüş və yo-

rulmuşdu. Əmisi, Əbu Cəhlə: “Sümeyyənin işini sənə həvalə edirəm”. deyərək geri çəkildi.

Əbu Cəhl kinindən, kibirindən gözü dönmüş vəhşilər kimi Həzrət Sümeyyəyə ﵁ tərəf yönəldi və qəzəblə:

“Sən gözəlliyinə aşiq olduğun üçün Məhəmmədə iman etdin” deyə təhqir etdi.

Sümeyyə anamız da o səfehə ağır ifadələr söyləyərək qarşılıq verdi.

Əbu Cəhl daha da qəzəbləndi. Eşitdiyi ifadələrlə sifətinə tüpürülmüşə dönən səfeh, zalım, dinsiz, vəhşi əlindəki mizrağı Sümeyyə anamıza sancaraq şəhid etdi.

Necə uca iman!.. Necə səbir!.. Necə dözüm!... Necə ağır bir hərəkət!... Və necə gözəl son!...

Zalımın qarşısında susmamaq nə böyük şücaət! Nə gözəl onun qarşısında baş əyməmək!..

Haqqı müdafiə etmək və hər yerdə haqqı demək nə böyük qəhrəmanlıq!..

İman nə böyük güc!... İmansız ürək həqiqətən sinədə yük!...

Allahım bizlərə də iman qüvvəti lütf et!.. Üç günlük dünyaya aldananlardan etmə!... Daim haq-

qı tutub qaldıra bilməyi nəsib et!... İmanla yaşayıb imanla Sənə qovuşan salehlərdən et!... Amin.

❀

Hz. Sümeyyə رضي الله عنها İslamın ilk şəhid xanımı olma bəxtiyarlığına çatan bir iman sahibidir. İslam uğrunda etdiyi fədəkarlığıyla ad çıxarmış, Allah və Rəsulu yoluna canını qoymuş bir qəhrəman ana.

Hz. Sümeyyənin رضي الله عنها oğlu Ammar İbni Yasir رضي الله عنه işgəncədən azad olduğu zaman bir başa Hz. Peyğəmbərin ﷺ hüzuruna gəldi. Anasının bu şəkildə qəddarcasına şəhid edilməsinə kədərləndiyini və artıq edilən zülmlərə taqətinin qalmadığını bildirdi. Bir qurtuluş yolu verməsini Rəbbimizdən niyaz etməsini istədi.

Hz. Peyğəmbər ﷺ Ammara رضي الله عنه çıxış yolu olaraq səbir etməyi tövsiyə etdi. Onlar haqqında:

*“Allahım, Yasir ailəsindən heç birisinə atəş ilə əzab etmə”.* deyə dua etdi.

Ümmətin Firovunu olaraq xarakterizə edilən azğın müşrik Əbu Cəhl, Bədir döyüşündə öldürüldüyü zaman; Hz. Peyğəmbər ﷺ o gün Ammara رضي الله عنه xitab edərək:

“Allah-Təala ananın qatilini öldürdü” buyurdu. Ürəyinin dərinliklərində hiss etdiyi iztirabı neçə

müddətdən sonra təkrar bu sözlərilə bildirmiş oldu.

Rəbbimiz bu iman fədaisi ailəyə rəhmətini bol eləsin. Hər birimizə onların mücadilə eşqindən, müqavimət gücündən səbir və mətanətindən hissələr ala bilməyi və şəfaətlərinə nail ola bilməyi nəsib etsin.

Amin.

*Musab İbni Umeyrin ﷺ Xanımı*

# Həzrət Hammə Binti Cahş

*——— radiyallahu anhə*

Hamnə binti Cahş ﷺ, Rəsulullah ﷺ əfəndimizin baldızıdır.

Mədinədə ilk dəfə Quran müəllimi olan, Uhudda şəhid edilən Musab İbni Umeyrin ﷺ həyat yoldaşıdır.

Allahın Rəsuluna ilk beyət edən, İslamla ilk şərəflənən xanımlardan biridir.

Müşriklərin zülmlərinə dözən, imanından əl çəkməyən igidlərdən və Mədinəyə hicrət edən ilk xanım səhabələrdən biridir.

Uhud meydanında ərini, dayısını və qardaşını şəhid olaraq itirən mətanat sahibi bir xanımdır.

O, Rəsulullah ﷺ əfəndimizin xalasının qızıdır. Anası, Əbdülmüttəlibin qızı Ümeymədir. Atası, Cahş ibni Riabdır.

O, möminlərin analarından olan Zeynəb binti Cahş radiyallahu anhə ilə bacıdır. Hz. Peyğəmbərimizin ﷺ baldızı olaraq yaxın qohum olma şərəfini əldə etmiş bir bəxtiyardır.

Hamnə xatun, İslamın ilk illərində Allahın Rəsuluna beyət etmiş və bütün qəlbi ilə Allaha və Rəsuluna təslim olmuş, əmr və qadağalarına könüldən bağlanmış bir xanımdır.

O, Məkkənin ən gənc və yaraşıqlı cavanı Musab İbni Umeyr رضي الله عنه ilə evləndi.

İslamın nuru ilə könüllərini və evlərini aydınladaraq xoşbəxt bir həyat yaşadılar. Bir qız uşaqları dünyaya gəldi.

İslamı yaşamaq məsələsində bir-birlərinə dəstək olan bu gənc müsəlmanlar müşriklərin əzab-əziyyətlərinə birlikdə dözdülər. Müqavimət göstərdilər, dəyişmədilər. Səbir etdilər, nicat tapdılar.

Var-dövlət içərisində olmalarına baxmayaraq İslamı yaşamaq üçün yeməklərindən, geyimlərindən və bolluq içərisində rahat həyat yaşamaqdan uzaq qaldılar.

İslami həyat yaşamaqdan və iman mücadiləsindən əsla geri durmadılar. Məkkədə müşrik-

lərin zülmləri artdığı zaman Mədinəyə ilk hicrət edən mühacirlər oldular.

Hamnə binti Cahşın ﵂ sevgili əri Musab İbni Umeyr ﵁ Mədinəni İslama açan bir iman qəhrəmanı idi.

Nəzakəti, məhəbbəti, təvazö və mərhəmətilə mədinəlilərin könüllərini İslama yaxınlaşdıran bir təbliğçi.

Xurma bağçalarında ev-ev gəzərək söhbət edən və insanlara Quran ayələrini öyrədən bir mübarizə adamı.

İslamın yayılması mövzusunda həvəsli bir igid gənc idi.

Onun insanlara gülərüzlə, səmimi yaxınlaşması, isti və yaxın münasibəti, göndərilən son peyğəmbərə və İslama könülləri isindirmişdi.

O, kin və qəzəblə yanına gələn Evs və Həzrəc qəbiləsinin rəislərinin düşmənçiliyini gülərüzüylə əridən sevgi ilə dolu bir qəlbə sahib idi. Həddindən artıq şəfqət və mərhəmətli, ağır, ciddi, səmimi və açıq qəlbli söz və davranışları ilə onlara İslamı izah edərək könüllərini qazanmışdı.

O Mədinənin iki böyük qəbiləsinin müsəlman olmasıyla xidmətlərini asanlaşdırmış və müsəlmanlıq sürətlə yayılmağa başlamışdır. Nəhayət

Hz. Peyğəmbərimizin ﷺ hicrətilə Mədinə tam bir İslam yurdu halına gəlmişdi.

Musab İbni Umeyrin رضي الله عنه İslamı təbliğdəki həyəcanı, məhəbbəti, həssaslığı və səyi; ümmətin bütün təbliğçilərinə bir cığır açmış və örnək alınacaq ən gözəl bir davranış olaraq bizlərə qədər gəlib çatmışdır.

❀

O, yumşaqxasiyyətli, mərhəmətli və təvazökar bir Quran müəllimi olduğu kimi, eyni zamanda döyüş meydanında da qorxusuz bir qəhrəman idi.

Uhud döyüşündə çılğın bir şəkildə müşriklərlə döyüşürdü. Hz. Peyğəmbərin ﷺ hüzurunda qəhrəmanlıqla vuruşurdu. Özü şəhid olmuşdu ancaq bir mələk onun surətinə bürünüb döyüşə davam edirdi.

Hz. Peyğəmbər ﷺ ona xitab edərək: *"İrəli Ey Musab irəli!..."* buyurmuşdu. Mələk arxaya dönərək "Mən Musab deyiləm!" dediyi zaman Musabın رضي الله عنه şəhid olduğu bilinmişdi.

Uhud döyüşü müsəlmanlar üçün çox çətin olmuşdu. O gün bir imtahan səhnəsi olaraq Uhudda qiyamətə qədər gələcək müsəlmanlar üçün ibrətlərlə dolu bir tarix yazılmışdı.

Sevimli əmi Hz. Həmzə رضي الله عنه və Mədinənin ilk Quran müəllimi Musab kimi neçə səhabələr şəhadət şərbətini orada içdilər. Uhudun gözətçisi olaraq bədənləri o meydanda qalmış, ruhları Uca Yaradana qovuşmuşdu. Sanki möminlərin Uhuda gəlib onlara xüsusi salam vermələrini və o məkanlardan ibrət dərsləri almalarını istəyirdilər.

Salam olsun o şəhidlərə!... İbrət olsun biz möminlərə!..

O gün Rəsulullah ﷺ Əfəndimizin də şəhid edildiyi şayəsi çıxmışdı. Bu xəbər Mədinəyə çatdığı zaman, döyüşdən qıraqda qalan xanım səhabələr çəbhəyə qaçıb gəldilər. Hamnə binti Cahş da رضي الله عنها bunların arasında idi.

Müsəlman xanımlar Uhuda tərəf yaxınlaşdığı zaman Rəsulullah ﷺ Əfəndimiz haqqında eşitdiklərinin yalan olduğunu öyrəndilər. Onun sağ-salamat olduğuna çox sevindilər.

İslam ordusunun Mədinəyə hərəkət etməsi xəbərini aldıqları zaman yolun kənarında gözləməyə başladılar. İlk qarşılaşdıqları mücahiddən xəbərlər almağa çalışırdılar. Həyəcan içərisində döyüşdə iştirak edən yaxınlarını soruşurdular. Ancaq əshabı-kiramdan heç kim cavab vermək istəmirdi.

Hz. Peyğəmbər ﷺ bütün suallara cavab verirdi. Növbə Hamnə binti Cahşa (r.anha) çatmışdı. Rəsulullah ﷺ onu gördüyü zaman duyğulandı və hüznlü bir şəkildə onu qarşıladı.

Necə cavab versin? Əri, qardaşı və dayısı şəhid olmuşdular.

❀

Rəhmət və şəfqət Peyğəmbəri ﷺ kədərli bir şəkildə ona tərəf yönəldi və:

-*"Ey Hamnə! Səbir et və Allahdan savab gözlə!"* buyurdu. O da:

-Kimin üçün səbir edim ya Rəsulallah!" dedi. Hz. Peyğəmbər ﷺ:

-*"Dayın Həmzə üçün".* buyurdu.

Qədərə təslim olmuş Hamnə (r.anha) dərin bir təvəkküllə: **"İnnə lilləhi və innə ileyhi raciun-** Bizlər Allahın qullarıyıq və Ona dönəcəyik, Allah ona rəhmət və məğfirət etsin**"**. dedi.

Hz. Peyğəmbər ﷺ təkrar olaraq:

-*"Ey Hamnə! Səbir et və Allahdan savabını gözlə!"* buyurdu. O da:

-Kimin üçün ya Rəsulallah!" dedi. Hz. Peyğəmbər ﷺ:

-*“Qardaşın Abdullah İbni Cahş üçün.”* buyurdu. Hamnə رضي الله عنها yenə səbir və mətanət içərisində, **“İnnə lilləhi və innə ileyhi raciun-** Bizlər Allahın qullarıyıq və Ona dönəcəyik, Allah ona rəhmət və məğfirət etsin**”**. deyə dua etdi.

Hz. Peyğəmbər ﷺ üçüncü dəfə:

-*“Ey Hamnə! Səbir et və mükafatını Allahdan gözlə!”* buyurdu. O da:

-Kimin üçün ya Rəsulallah!” dedi. Hz. Peyğəmbər ﷺ dərin bir hüzn içərisində:

-*“Musab İbni Umeyr üçün”.* buyurdu.

Sevgili ərinin adını eşitdiyi zaman Hamnənin رضي الله عنها halı birdən dəyişdi və:

“Vay mənim başıma gələnlərə!” deyərək ağlamağa başladı. Yetim qalan uşaqlarını düşündü.

Onun bu dərin üzüntüsünə dayana bilməyən Rəhmət Peyğəmbəri Hamnəni təsəlli etmək üçün bu iltifatı etdi:

-*“Şübhəsiz ki, qadının yanında ərinin ayrı yeri vardır. Qadınlarda ərlərinə qarşı ayrı bir bağlılıq vardır. Hamnə dayısının və qardaşının ölümünə dözə bildi. Ancaq ərinin vəfatını eşitdiyi zaman mətanətini qoruya bilmədi.”* buyurdu.

Hamnə və uşaqlarına sahib çıxıb himayəsinə alacaq yaxşı bir xələf verməsi üçün Allaha dua etdi.

❀

Hamnə رضي الله عنها sevgili əri Musabın رضي الله عنه ayrılığına dözə bilmədi. Ancaq qədərə də etiraz etmədi. Peyğəmbərimizin duasıyla sakitləşməyə çalışdı. Allaha təvəkkül edərək həyatını davam etdirdi.

Dünya sıxıntılar yeri idi. Bu çətin imtahanlara səbrlə və qədərə razı olaraq dözmək lazım idi. Əzab, kədər, acı və sıxıntıları könüllərə dəfn edərək mətanətlə dözmək lazım idi.

Rahatlıq yalnız Allaha sığınmaqla, Ona təvəkkül etməklə mümkün idi. Səhabələrin hər biri səbir, səbat və təvəkkül əhli idi. Qədərə razı olmaq onların şüarı idi.

❀

Hamnə binti Cahş رضي الله عنها daha sonra Talha bin Ubeydullah رضي الله عنه ilə evləndi. Ondan da Məhəmməd və İmran adında iki oğlu oldu.

Vəfat tarixi bilinməyən Hamnə binti Cahşın رضي الله عنها Hz. Peyğəmbərdən ﷺ hədis rəvayət etdiyi də bildirilir.

Allah ondan razı olsun.

Allah-Təala Hamnədəki رضي الله عنها səbir, təvəkkül, qədərə razı olmaq kimi gözəl əxlaqından bizlərə hissələr almağı nəsib etsin. O ulduz insanların şəfaətlərinə nail etsin.

Amin.

*Əbu Süfyanın رضي الله عنه Xanımı*

# Hind Binti Utbə

*———— radiyallahu anhə*

Hind binti Utbə رضي الله عنها Məkkənin Fəthi əsnasında İslamın nuruna qovuşmuş xanım səhabədir.

Qadınlıq tarixində xüsusi xarakterə sahib, bütün duyğu və düşüncələrilə tamamilə özünə xas şəxsiyyəti ilə tanınan, ifadə gücü qüvvətli və hər cəhətdən bacarıqli bir xanım idi.

Güclü zəka sahibi...

İntiqam hissləri və macəra dolu qaranlıq bir həyatdan özünü qurtaran, cahiliyyət dövründə ən öndə gedənlərdən olduğu kimi İslamla şərəfləndikdən sonra da ən öndə döyüşən qəhrəmanlardan idi.

O Məkkədə dünyaya gəlmişdir. Atası itaətsiz müşriklərdən Utbə İbni Rabia, anası Safiyyə binti

Ümeyyədir. Babası isə Qureyşin rəislərindən olan Əbdi Mənafdır.

Hind şəxsiyyət baxımından sərt təbiətli, qüruru şəxsiyyət halına gətirmiş bir qadın idi.

O ilk olaraq Məhzumoğulları qəbiləsindən Faqih ibni Muğirə ilə evləndi. Eban adında bir oğlu oldu. Onu aldatdığını zənn edən əri bir ara onu atasının evinə göndərdi. Yanıldığını hiss etdiyi zaman yenidən birlikdə olmalarını istədi. Ancaq Hind o adama yenidən geri qayıtmadı. Özünə qarşı edilən iftiranı qüruruna sığışdıra bilmədi.

Hind iti zəka sahibi bir qadın idi. Ər seçdiyi zaman çox dəqiq davrandı. Atasından onunla evlənmək istəyənlərin adlarını yox, vəsflərini söyləməsini istədi. Namizədlərin arasından İslam dininin əleyhindəki fəaliyyətləri ilə tanınan Əbu Süfyanı seçdi. Bu evlilikdən də Muaviyə və Utbə adlı oğulları ilə, Cuveyriyə və Ummul-Hakəm adlı qızları dünyaya gəldi.

O cahiliyyət dövründə qəti bir İslam düşməni idi. İliklərinə qədər kin, kibir, qürur və həsədlə dolu idi. Qəlbi ac və hüzursuz idi. Hirs və intiqam hissləri ilə gəncliyini keçirdi.

O, bir qadın olaraq, qadınlıq duyğularından istifadə edərək Uhudun hazırlayıcısı oldu. Ərini və müşriklərin öndərlərini hər fürsətdə düyüşə təşviq etdi.

Bədir döyüşündə ölən atası Utbə, qardaşı Vəlid və əmisi Şeybənin intiqamını alana qədər ətir sürtməyəcəyinə, əriylə bərabər olmayacağına and içdi. Əlindəki bütün imkan və fürsətlərdən istifadə edərək qureyşlilərdən yaxınlarının intiqamını almalarını istədi.

O, intiqam hissiylə dolu, sanki bir od parçası qadın idi.

O, Uhud günü müşrik ordusunun komandiri olan əri Əbu Süfyanla birlikdə döyüşə qatıldı. Qureyşli digər qadınlarla dəf çalıb şeirlər oxuyaraq ordunu döyüşə təşviq etdi. Hz. Həmzəni ﷺ öldürmək üçün Vəhşiyə mükafat vəd etdi. Azad edəcəyini söylədi. Onun İslama qarşı olan düşmənçiliyi Məkkənin fəthinə qədər davam etdi.

İslam ordusu Məkkəyə yaxınlaşdığı zaman elçi olaraq gedib müsəlman olaraq qayıdan Əbu Süfyan xanımı Hindi heç cürə razı sala bilmədi. Onun daxilindəki intiqam atəşini söndürə bilmədi.

Məkkə xalqına vəziyyəti izah edərkən ər-arvad arasında yaşanan bu mücadilə Hindin xarakterini göstərməsi baxımından çox diqqət çəkici idi. Əbu Süfyan xalqına belə səsləndi:

-“İndi hal-hazırda Məhəmməd, heç bir şəkildə qarşı gələ və güç çatdıra bilməyəcəyimiz bir ordu ilə gəlmişdir!

Kim Əbu Süfyanın evinə girərsə güvən içərisindədir.

Kim məscidə (Kəbəyə sığınarsa) girərsə güvən içərisindədir.

Kim evinə girib qapısını bağlayarsa ona toxunulmayacaqdır!”

Bu sözlər Hindin səbrini tükəndirdi və şiddətli zərbəyə məruz qalan pələng kimi Əbu Süfyanın üzərinə atıldı və saqqalından tutaraq səsinin çıxdığı qədər çığırdı:

-Ey Qaliboğulları! Özündə heç bir xeyir olmayan, üzünüzün qara ləkəsi olan bu adamı dayanmayıb öldürün! Sizin aranızdan belə bir ismətsiz və bu qədər şərəfsiz bir kimsə çıxmışdır!

Əbu Süfyan, saqqalını tutan Hindi sərt bir şəkildə itələyib:

-Rədd ol yanımdan, deyə qışqırdı. Əlavə olaraq bunları dedi:

-Ey Məkkəlilər! Əsla Hindin söylədikləri sizi aldatmasın! Özünüzü itirməyinizə ehtiyac yoxdur!

Hind yenidən özünü toplayıb qışqırmağa başladı:

-Öldürün bu ağlını itirmiş qocanı! Bunu öldürməyiniz özünüzü və vətəninizi qurtarmaq olduğunu bilmirsinizmi?

Əbu Süfyan hansı səbəbdənsə hər şeyə baxmayaraq yumuşaq davranmağı da ehmal etməmişdi:

-Səsini kəs, artıq həddini aşdın! Gir evinə!

Ancaq Hind bunun kimi xəbərdarlıqları eşidəcək vəziyyətdə deyildi.

Əbu Süfyan, qarşısında toplanmış Qureyşə bir daha baxdı:

“Əsla bu qadın sizi aldatmasın! Özünüzü itirməyin! Düçüncəsiz hərəkət etməyin! Məhəmməd həqiqətən qarşısında tab gətirə bilməyəcəyimiz bir ordu ilə gəlmişdir!

Mən sizin görmədiklərinizi gördüm. Sayı bilinməyən o qədər əsgərlər, atlar və silahlar gördüm ki, onlara heç kimin gücü çatmaz. Kim Əbu Süfyanın evinə girərsə, kim öz evində oturarsa, kim Məscidi-Harama sığınarsa ona heç bir təhlükə yoxdur”. dedi. Xalq bu şəkildə oradan dağıldı.

Ortalığı bir səssizlik bürüdü. Orada olub, Əbu Süfyandan bunları eşidənlərin çoxu evlərinə gedib qapılarını bağladılar.

Hind öz evində döyüş atəşini alovlandırmaq istəsə də bunu da bacara bilmədi. Əbu Süfyanın oğlu Yezid, qardaşı Müaviyə, Hindin söylədiklərini eşitmək belə istəmədilər. Yezid və digər qardaşı Amr atalarına kömək edərək hər kəsi evlərinə girməyə təşviq etdilər.

Məkkə xalqının bir qismi daha çox təhlükəsiz olmaq məqsədilə Əbu Süfyanın evinə sığındılar.

Bu hadisələr Hində bir-birindən fərqli dəhşət hadisələri yaşadırdı. Sinirləri tamamilə pozulmuşdu. Müaviyə hər dəfə anasını sakitləşdirmək istəyir, könlünü almaq istəyir ancaq Hind evində onların heç birini görmək istəmirdi.

Uzaqlardan gələn səslər yavaş-yavaş yaxınlaşmağa başlamışdı.

Müsəlman ordusunun qabaqcılları Kudey tərəfindən görünürdü. Səsləri üfüqləri titrədirdi.

*Allahdan başqa ilah yoxdur!*
*O, öz sözündə durdu!*
*Məhəmmədə kömək etdi!*
*Bütün orduları tək başına,*
*Məğlub edib məhv etdi!*

İndi hər kəs evlərinin damlarına və pəncərələrinə tərəf qaçıb Məhəmmədin öz ordusu ilə

Məkkəyə qalib olaraq girişini seyr edirdi. Küçələrdə məkkəlilərdən heç kim qalmamışdı. Bütün Məkkəni əzəmətilə dolduran təkbir səsi, yavaş-yavaş və böyük bir ehtiramla Kəbəyə yaxınlaşan müsəlman əsgərlərinin səsi idi.

*Allahdan başqa ilan yoxdur!*
*Təkdir və ortağı yoxdur!*
*Bütün mülk və səltənət Onundur!*
*Həmd və səna Onadır!*
*O hər şeyə qadirdir!*

Axşam olmağa, gecə düşməyə başlamışdı. Hər kəs evlərinə çəkilib çıraqlarını yandırdılar. Məkkədə bütün səslər kəsilmiş, sadəcə müsəlmanların təkbir səsləri eşidilirdi.

Hind isə evinin içərisində dayanmadan o yan bu yana gedib gəlirdi. Evin dörd tərəfini dolaşırdı. Eyni hərəkəti dəfələrlə etməkdən nə yorulur, nə də bezirdi. Hər atdığı addımda bu işin sonunu fikirləşir hesab içərisində hesablar edirdi. Ağlına ən kiçik bir ümid gəldiyi zaman dayanıb fikirləşir, sonra yenə addımlamağa davam edirdi.

❁

Müsəlmanlar indi doyunca Kəbəni təvaf edirdilər. On mindən çox bir ordu, bir qarışqanı belə incitmədən Allahı anmaqla məşğul idi. Kəbəyə duyduqları təzim və hörmət sonsuz idi. Hind belə

bir mənzərəni bütün həyatı boyunca bir dəfə belə görməmişdi.

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ yanında on mindən çox əshabıyla birlikdə qan tökmədən Məkkəyə girdi. Kəbəyə çatdı. Allahın evi bütlərdən təmizləndi. Onları bir-bir qırdı.

Bilal رضي الله عنه gur səsiylə Allah-Təalanın birliyini, böyüklüyünü yüksək bir yerə çıxaraq elan etdi. Yanıqlı avazıyla dağları əridən, ürəkləri titrədən səsilə azan oxudu. İslam ordusu bu böyük əzəməti ilə Allahın hüzurunda dayandı. Camaatla namaz qılındı. Qiyamda, rüku və səcdələrdəki bərabərliyin könüllərə verdiyi xuşu  ilə ibadət edildi.

Məkkə günü tutularaq öldürülməsinə fərman verilən Hind binti Utbə evinin pəncərəsindən gözlərini çəkmədən müsəlmanların Kəbədə camaatla namaz qılmalarını seyr etdi.

İslam ordusunun əzəməti, Rəsulullahın ﷺ dərin şəfqəti və davranışı, müsəlmanların ilahinin hüzurundakı duruşları Hində çox təsir etmişdi.

Hindin qəlbindəki intiqam atəşi sönməyə və illərlə özüylə birlikdə yaşayan kin əjdahası qəlbindən çəkilməyə başlamışdı.

“Məhəmmədin ilahı Qureyşin ilahlarından həqiqətən böyük imiş?” deyə əri ilə danışmağa başladı.

Bunda şübhə yoxdur Ey Hind!

Xəbərdar ol ki, Uhudda “Böyük” dediyin Hübel indi yerlərə sərildi. Üç yüz altmış bütün üç yüz altmışı da indi ayaqlar altındadır!

“Əbu Süfyan gözlərini ayırmadan Hində baxırdı. Hind, təngi-nəfəs halda diqqətlə Kəbəni təvaf edənləri, qulluğunu sadəcə Allahın hüzurunda yerinə yetirənləri, rükular və səcdələrlə Allahın hüzurunda namaz qılanları seyr edirdi. Əbu Süfyan da Hindi seyr edirdi. “Görəsən sabah bunun halı necə olacaq?” deyə fikirləşirdi. Kəbəni təvaf edənlərin təhlil və təkbirləri Hindin qulaqlarını doldurur, üzü rəngdən-rəngə düşürdü.

Bu ürpərdici xuşu halının bir yerində Hindin üzündəki gərginlik yox oldu.

Görəsən bir şey mi gördü?

Onu illərdir pəncəsi altında əzab verən kin əjdahası yavaş-yavaş daxilindən uzaqlaşmağa başlamışdı.

Əbu Süfyan Hindin bütün hərəkətlərini izləməklə məşğul idi. Üzündə hər bir təbəssümü gördüyü zaman yaxınlaşıb maraqlanırdı. Danışdırmağa çalışırdı.

Hindin bütün kin-küdurəti qırılmış, ağzı da sakitləşmişdi. Bir şey söyləmək, kimsəni təhqir etmək istəmirdi.

❀

İllərlə içində daşıdığı kin-küdürət indi yox olmuşdu. Hind artıq başqa şeylər düşünməklə məşğul idi. Əbu Süfyan da onu tutub mövzuyla bağlı danışmaq və onun qəlbini yumuşaltmaq istəyirdi.

Amma itiriləcək vaxt yox idi. Saniyələri belə dəyərləndirib mövzuya təmas etməliydi.

-Müsəlmanlar arasında qardaşın Əbu Huzeyfəni gördüm. Məni gördüyü zaman salam verdi. Mənimlə maraqlandı deyə sözə başlamaq istədi.

Anca Hind məhəl qoymadı.

Əbu Süfyan düşünüb-daşınıb onu danışdırmaq üçün başqa bir mövzunu açmağa çalışdı. Dedi ki: “Ona bir söz deyim, sonra dayanım, özü təhlil etsin!” dedi.

-Ey Hind, Məhəmmədin sehri minlərlə insana gör necə təsir edib!

Hind, dərhal fikirləşmədən cavab verdi.

-Xeyr! O qətiyyən sehirbaz deyil!

❀

Hind daxilində bir işığın doğduğunu hiss edirdi. Ancaq cahiliyyət dövrünün onun daxilində kök saldığı şüursuz və məntiqsiz qürur onun həqiqəti qəbul etməsini gecikdirirdi.

İndi o, öz-özünə soruşmağa başlamışdı:

“Bizim aramızda nə qədər üstün şəxsiyyətli, nə qədər şərəfli adamlar var idi. Bunlardan sadəcə birinin şərəfi bütün Məkkəni doldururdu. Fəqət biz nə məqsədlə Məhəmmədə düşmən olduq, Ona tabe olanları öldürdük, işgəncələr verdik və nəhayət nə zaman öldürüləcəyik qorxusuyla yaşadıq?

Nə üçün vaxtında Məhəmmədə tabe olmadıq! Onun izzətinin eyni zamanda bizim, şərəfinin də bizim şərəfimiz olduğunu nə üçün düşünə bilmədik.

Bizim məqsədimiz nə idi ki, Məhəmməddən ayrı düşdük? Hamımız Əbdimənaf oğullarından deyilikmi?

Bu kimi düşüncələrlə Hind özünü axtarırdı. İslamla şərəflənmə həyəcanı ilə vicdanındakı hislər, duyğular, düşüncələr toqquşmağa başlamışdı.

Əbu Süfyan Hinddə hiss etdiyi yaraların ağrısını azaltmaq istəyirdi. Bunu ona bəşəriyyət tarixinin şahidlik etdiyi ən həlim insanın, qohum-

larına qarşı ən yaxşı davranan bir şəxsin, bütün insanlığa qarşı qəlbi sevgi, şəfqət və mərhəmətlə dolu ən gözəl insanın bir hərəkətini izah edərək bildirmək istədi.

❁

Kaş ki, ey Hind Məhəmmədi biz də başa düşsəydik. O Kəbədə toplanan xalqa:

*"İndi mənim sizə nə edəcəyimi zənn edirsiniz?"* deyə sual etdi. Onlar da dedilər ki: "Sən bizim şərfəli bir qardaşımız və şərəfli qardaşımızın da oğlusan!"

Məhəmməd də dedi ki: *"İndi sizə xələl gətirəcək heç bir əzab-əziyyət yoxdur. Allah hər birinizi bağışlayandır. O mərhəmətlilərin ən mərhəmətlisidir! İndi gedə bilərsiniz! Hamınız sərbəstsiniz".*

❁

Əbu Süfyan ürpərərək anlatdığı bu böyük hadisə, Hindin iliklərinə qədər təsir etmişdi. İllərlə ona işgəncə edənləri, illərlə ona qarşı qılınc çəkənləri bir göz qırpımında sərbəst buraxmaq nə demək idi?

Görəsən Hind də "İndi gedə bilərsiniz, sərbəstsiniz" dediklərinin içərisindəydimi?

Demək hər kəs kimi o da Məkkədə sərbəst gəzəcək və ona heç kim toxunmayacaqdı?

Hind də onun çox yaxın bir qohumu deyildimi? Bəli, onun əmilərinin qızı idi.

Gecənin yarısından keçmişdi. Hind, otağıyla Kəbəyə baxan pəncərəsi arasında gedib-gəlməyə davam edirdi. Möminlərin göz yaşlarına qarışan təkbir və təhlilləri, ardı-arası kəsilməyən duaları, niyazları, dayanmadan davam edirdi. Hind, bu mənzərəyə hər baxdığında içindəki bütlər bir-bir yıxılır və içi rahatlanırdı.

Gördüyü yuxunu xatırladı. Günəşin yandırıcı istisi altında qaldığını, kölgə yaxınlığında olduğu halda gedə bilmədiyi, sonra Rəsulullahın uzaqdan görünüb yaxınlaşdığını və onu xilas etdiyini xatırladı. Əri Əbu Süfyana:

-"Mən Məhəmmədə beyət etmək istəyirəm." dedi.

Xanımının bu sözünə təəccüblənən Əbu Süfyan onun sədaqətini anlamaq üçün "Axı sən İslamı inkar edirdin?" dedi. Hind dəərinə:

- "Bəli! Vallahi elə idim. Ancaq indi, mən buna qətiyyətlə inanıram ki, bu gecədən əvvəl Kəbədə Allaha haqqıyla qulluq edilməmişdir. And içirəm ki, müsəlmanlar bütün gecəni namaz qıla-

raq, ayaq üstə, rükuda və səcdədə keçirdilər”. deyərək mənəvi bir təsir altında qaldığını, halının və düşüncələrinin dəyişdiyini etiraf etdi. Sözlərinə belə davam etdi:

İndi, Məhəmmədə qarşı o qədər dərin utanc hissinin içərisindəyəm ki, Onun hüzuruna çıxmadan əvvəl yerin yarılmağını və itib batmağımı istəyirəm!

Əbu Süfyan: Xeyr ey Hind. Məhəmməd bunu heç bir zaman etməz. Onun əfvi, bütün ərəblərə və ərəb olmayanlara şamil edilmişdir. İndi artıq yatağına uzan və dincəl. Səhərə hələ vaxt var.

❀

İndi Hind başqa bir varlıq olmuşdu. Üzünü örtən iman nuru onun çöhrəsini tamamilə dəyişdirmiş, daxilindən təmizlənib gedən pis duyğulardan azad olması onu aydınlıq və geniş bir dünyaya qovuşdurmuşdu. İndi qəlbi, bir quşun qanadlarından daha xəfif idi. Ancaq buna baxmayaraq dərdi də olduqca böyük idi.

Görəsən Məhəmməd onun beyətini qəbul edib, şərəfli ordusunun sıralarında ona yer verəcəkdimi?

İllərlə kin və nifrətlə döyünən Hindin qəlbi indi Məhəmmədə beyət edəcəyi dəqiqələri gözləmə-

yin, ona inananlardan biri olmağın həyəcanıyla döyünürdü.

Xanımının qərarının qəti olduğunu görən Əbu Süfyan ona: “Elədirsə qohumlarından birini yanına al və get!” dedi.

Ertəsi gün Hind Rəsulullahın harada olduğunu soruşdu. Səfa təpəsində beyət aldığını eşitdiyi zaman qardaşı Əbu Huzeyfəni رضي الله عنه yanına alaraq getdi.

Əbu Huzeyfə رضي الله عنه İslamın ilk illərində müsəlman olmuşdu. Onu özünə dəstək bilən Hind binti Utbə, Qureyşin adlı-sanlı xanımlarından da bir qrup düzəltmişdi. Tanınmaması üçün özünü bir örtü ilə gizlətmişdi. Çünki öldürülməsindən qorxurdu. Bu hal-vəziyyət içərisində Səfa Təpəsinə getdi. Xanımların içərisinə qatıldı.

İki Cahan Günəşi Hz. Peyğəmbər ﷺ xanımların da beyət üçün gəldiyini eşitdiyi zaman məmnun oldu. Ona Mumtəhinə surəsi nazil olmuşdu. Son ayədə Allah-Təala belə buyururdu:

**“Ya Peyğəmbər! Mömin qadınlar Allaha heç bir şərik qoşmayacaqları, oğurluq və zina etməyəcəkləri, övladlarını öldürməyəcəkləri** (qız uşaqlarını diri-diri torpağa gömməyəcəklərini)**, özgə kişilərdən olan uşaqlarını yalandan ərlərinə isnad etməyəcəkləri və heç bir yaxşı** (bə-

yənilən) **işdə sənin əleyhinə çıxmayacaqları barədə sənə beyət etmək üçün yanına gəldikləri zaman onların beyətini qəbul et və Allahdan onların bağışlanmasını dilə. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir!”**

❀

Hind özünü tanıtmamağa çalışırdı. Uzaqdan:

- “Ya Rəsulallah! Əlini tutub sənə beyət edimmi? deyə sual etdi.

Hz. Peyğəmbər ﷺ də:

*“Mən xanımların əlini tutmuram. Mənim yüz qadına xitab etməyim hər bir qadına ayrı-ayrı xitab etməyim kimidir”.* buyurdu

Xanımların beyətləri Hz. Ömərin ؓ vasitəsilə edildi. Hz. Ömərə ؓ:

-“*Onlara de ki; Allaha heç bir şeyi ortaq qoşmamaq şərtilə mənə beyət edəcəklər!”* buyurdu.

Qureyşin xanımlarının adından Hind danışırdı. O:

-“Əgər Allahdan başqa bir ilah olsaydı başımıza gələnlərdən bizi qoruyardı”. dedi.

Hz. Peyğəmbər ﷺ təkrar olaraq Hz. Ömərə ؓ

-*“Onlara de ki; oğurluq da etməyəcəklər!”* buyurdu.

Hind:

- “Ya Rəsulallah! Əbu Süfyan olduqca xəsis adamdır. Mən ondan xəbərsiz malından uşaqlarına xərcləmək üçün bir miqdar götürürdüm. Bunun mənim üçün halal və ya haram olduğunu bilmirəm. Əbu Süfyan nə mənə, nə də oğluna kifayət edəcək qədər  bir şey vermir”. dedi.

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ: *“Onun malından özünə və oğluna kifayət edəcək qədər götürə bilərsən!”* buyurdu.

Bir tərəfdən də gülümsəməyə başladı və: *“Deməli sən Hind binti Ütbəsən?”* dedi.

Hind üzünü açdı və göz yaşları içərisində:

-“Özü üçün seçdiyi dini qalib edən Allaha sonsuz həmd edirəm. Səndən də məni əfv etməyini təmənni edirəm. Ey Məhəmməd! Mən, Allaha inanan, Sənin gətirdiklərini təsdiq edən bir qadınam. Mən Hind binti Utbəyəm. Allah keçmişləri bağışlayar! Sən mənim keçmişlərimi bağışla ki, Allah  da Səni bağışlasın!” dedi.

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ Hində:

-*“Xoş gəldin! Müsəlman olmağın mübarək olsun”.* buyurdu.

Hind:

-“Vallah ya Rəsulallah! Dünən, yer üzündə Sənin ailə üzvlərinin pərişan olmasını istədiyim qədər həsrət duyduğum heç bir şey yox idi. Bu gün isə Sənin ailə üzvlərinin izzət və şərəfə nail olması qədər həsrət duyduğum başqa bir şey yoxdur. İndi isə gözümdə bu ailə üzvlərindən daha dəyərli heç bir kimsə yoxdur”. dedi.

Buna əlavə olaraq Rəhmət Peyğəmbəri ﷺ:

*-“Vallah elədir, mən sizlərə uşaqlarınızdan, ana və atalarınızdan daha sevimli olmadıqca imanınız kamil olmaz”.* buyurdu.

Hz. Peyğəmbər ﷺ yenə Hz. Ömərə رضي الله عنه tərəf dönərək:

*-“Onlara de ki; Zina etməyəcəklər!”* deyə beyət etsinlər.

Hind:

-“Ya Rəsulallah! Hür bir qadın heç zina edərmi?”

Onun adət-ənənəsinə və məntiqinə görə hür bir qadının zina etməsi qətiyyən mümkün deyildi. Hür qadın acından ölsə də zina edə bilməzdi. Bu kimi şeylər şəxsiyyətini itirmiş və səviyyəsiz kim-

sələrin işidir. Amma şərəfli hür bir qadın bunu əsla özünə yaraşdırmaz dedi.

Hz. Peyğəmbərimiz də:

-“Xeyr! Vallah! Hür bir qadın zina edə bilməz”. deyə təsdiq etdi.

Yenə Hz. Ömərə رضي الله عنه:

*-“Onlara de ki: Uşaqlarlını da öldürməyəcəklər”.* buyurdu.

Hind açıqsözlü idi. Çəkinmədən:

-“Kiçik ikən onları biz böyütdük, yetişdirdik. Siz öldürdünüz. Bədirdə öldürmədiyiniz gənc qaldımı ki, onları öldürək” dedi.

Hindin Hanzala adında oğlu Bədir döyüşündə müşrik olaraq öldürülmüşdü. Peyğəmbərimiz ﷺ təbəssüm edib keçdi və Hz. Ömərə رضي الله عنه:

-“*Onlara de ki: Özləri arasında bir iftira uydurub gətirməyəcəklər! Əmr etdiyim yaxşılıqları icra etmək barəsində mənə qarşı gəlməyəcəklər!”* buyurdu.

Hind təslimiyyətini ifadə edən sözləriylə:

“Vallah, iftira çox pis, çirkin bir işdir. Biz Sənin hüzuruna üsyan etmək niyyəti ilə gəlmədik” dedi.

Hüzurda olan xanımların hamısı bütün əmrlərinə itaət etmək üçün beyət etdilər.

Hind binti Utbə رضي الله عنها sanki dünyaya yenidən gəlirdi. Adətən, bir başqa insan olmuşdu. Rəsulullahın ﷺ mübarək ağzından çıxan hər bir sözlə içindəki cahiliyyət qalıqlarını söküb atırdı. Onun dərin sevgi dolu davranışı, məhəbbəti, şəfqət və mərhəməti qarşısında bütün düşmənliklər, kin, nifrət, qəzəb, həsəd, intiqam hissləri əriyib getmişdi.

Hind رضي الله عنها İki Cahan Günəşi Peyğəmbərimizə ﷺ olan heyranlığını sözlə ifadə edə bilmirdi. Bu coşğun sevgisini belə dilə gətirdi:

“Anam, atam sənə fəda olsun Ya Rəsulullah! Nə qədər müstəsna bir insansan! Bizi nə qədər böyük hədəflərə, nə gözəl şeylərə təşviq edirsiniz!” dedi. O, bunu ancaq dili ilə söyləmirdi. Bütün varlığı ilə söyləməyə səy göstərir və:

“Ya Rəsulullah! Yer üzündə Sənə itaət etməyən bir kimsənin qalmasını istəmirəm. Səmimi qəlbdən istəyirəm ki, hamı Sənə tabe olsun. Məni bundan daha çox sevindirəcək heç bir şey yoxdur” deyərək ürəyinin dərinliklərindəki məhəbbəti ortaya qoydu.

İndi artıq Hind رضي الله عنها özünü bir quş kimi yüngül hiss edirdi. Dostları Ümmi Hakim binti Haris, Bə-

qum binti Muazzəl, Fahitə binti Muğirə və s. ilə birlikdə evinə qayıtdı.

Hind ﵂ İslamın sonsuz rəhməti içinə girməyin sevinciylə könlünü təmizlədiyi kimi evini də bütlərdən təmizləməyə başladı. İlk iş olaraq illərdir boş yerə mübarizə etdikləri bütlərini sındırmağa başladı. Onları sındırdıqca hirsini: “Biz illərcə sənə aldanmışıq” deyərək göstərməyə çalışırdı.

Hind ﵂ bütləri sındırarkən oxuduğu bu ayə ilə öz sədaqətini göstərirdi:

**“De: “Haqq** (islam) **gəldi, batil (şirk və küfr) yox oldu. Çünki batil** (öz-özlüyündə) **yoxluğa** (heçliyə) **məhkumdur!”** (İsra, 17/81)

❀

Hind ﵂ anadan gəlmə yüksək bir qabiliyyət, xarakter və iti zəkaya sahib idi. Allah Rəsuluna olan dərin təslimiyyəti və məhəbbəti onun qabiliyyətlərini daha da zərifləşdirmiş, yüksək irfan və incə anlayış sahibi etmişdi. Rəsulullahın ﷺ duasına nail olmaq üçün fürsət axtarırdı.

Bir gün qoyun sürülərinin içərisindən ən kök və ən körpə iki quzunu ayırıb çıxartdı. Kəsdirib qızartdıqdan sonra xidmətcisi ilə Peyğəmbərimizə göndərdi.

O əsnada Hz. Peyğəmbər ﷺ möminlərin anası Ümmü Sələmə və Meymunə رضي الله عنها ilə birlikdə qohumlarının xanımlarının da bəziləri ilə "Əbtah" məhəlləsində idi. Xidmətçi onun hüzuruna çatdığı zaman:

"Bunu sahibim Hind binti Utbə sizə hədiyyə olaraq göndərdi. Bu il qoyunları az bala verdiyi üçün sizə layiq olanını və daha çoxunu göndərə bilmədiyi üçün üzr istəyir". dedi.

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ Hindin bu düşüncəli davranışı, məhəbbət və comərdliyindən məmnun qaldı. Ona belə dua etdi: *"Allah qoyunlarına bərəkət versin. Balalarını çoxaltsın".* buyurdu.

Hind رضي الله عنها bu duaya çox sevindi. Qısa bir zaman içərisində sürüləri çoxaldı. Qoyunlarının çoxu balaladı. Həyatında ummadığı bərəkəti gördü. Bu hadisəni vaxtaşırı xatırlayar və Rəsulullahın ﷺ hörmətinə görə hidayət və bərəkətə nail olduğuna görə Allaha həmd edərdi.

Hind رضي الله عنها həyatının sonuna qədər əri Əbu Süfyan رضي الله عنه oğlu Muaviyə رضي الله عنه və qızları ilə birlikdə ailəvi olaraq İslamın yayılması yolunda mallarını, canlarını Allah və Rəsulunun yoluna fəda etdilər. Oğlu Muaviyəni Rəsulullahın ﷺ xidmətinə verdi.

Vəhy katibi olaraq Peyğəmbərimizin ﷺ yanında yetişməsini təmin etdi.

❁

Döyüş meydanlarında xanım səhabələrlə birlikdə müsəlman ordusunu coşduran həyəcanlı şeirlər oxudu. Qadınları bir qayə ətrafında birləşdirib topladı. Hər zaman bərabər hərəkət edib cəbhədən qaçanları geri qaytardı. Yunanlara qarşı hücuma təşviq edərək onların məğlub olmasına vəsilə oldu. Qalibiyyət müsəlmanlara keçdi.

Yərmuk döyüşündə də böyük qəhrəmanlıqlar nümayiş etdirdi. Xanım dostlarıyla birlikdə əllərinə keçirdikləri ağac, daş parçalarıyla qəhrəmancasına döyüşdü. Yunanlara xeyli itki verdirdi. Çaşqın vəziyyətdə qalan Yunanlar qurtuluşu qaçmaqda gördülər.

Orduda qarışıqlığı gördüyü zaman digər xanımlarla birlikdə İslam ordusunun yığılıb toplanmasında böyük təsiri oldu. Qızı Cüveyriyyə ilə birlikdə Yunanlara qarşı şəxsən döyüşdü. Düşməni geri oturtdu. Allaha tam bir imanla bağlı olaraq ixlasla edilən hərəkətin qarşısında heç kimin dayana bilməyəcəyini sübut etmiş oldu.

❁

O çox gözəl danışan, ağıllı, cəsur və qürurlu bir qadın idi. Döyüşlərdə söylədiyi şeirlər, hicvlər

və mərsiyələrdən bir bölümü zəmanəmizə qədər gəlib çatmışdır. Məşhur şair səhabi Hansa ilə qarşılıqlı mərsiyələr oxuduqları rəvayət edilməkdədir.

O, Hz. Ömərin رضي الله عنه dövründə Şam valisi olan oğlu Muaviyəni ziyarət etməyə getmiş və xəlifənin bütün əmr və qadağalarına eynilə riayət etməsini tövsiyə etmiş və:

“Öməri tanıyırsan... O nə edirsə Allah üçün edər. Şərtinə görə o, bir Allah adamıdır...” deyə ona qarşı itaətkar olmasını bildirmişdir.

Anası sanki Muaviyəyə vəsiyyətini tamamlayırdı.

“Oğlum! Xalqın dili dayanmaz. Bu da Ömərim qulağına gedib çatar. Onun isə zarafatı olmadığını bilirsən”. deyə diqqətini ona yönəltdi.

Hind binti Utbə رضي الله عنها olduqca hərəkətli uzun bir ömür yaşamış, 77 yaşına girmişdi. Bütün vaxtını ibadət və dua ilə keçirirdi. Hz. Osman رضي الله عنه dövründə vəfat etdiyi rəvayət edilməklə birlikdə onun 635-ci il 14 martda Hz. Əbu Bəkrin رضي الله عنه atası *Əbu Kuhafə* ilə eyni gündə vəfat etdiyi də rəvayət edilmişdir.

Allah-Təala Hindin رضي الله عنها bu dastan olmuş həyat məcaralarından ibrətlər ala bilməyi və şəfaətinə nail olmağı nəsib etsin.

Amin.

*Osman İbni Mazunun رضي الله عنه Xanımı*

# Havlə Binti Hakim

——— *radiyallahu anhə*

Havlə binti Hakim رضي الله عنها Peyğəmbərimizə ﷺ ilk inanan xanım səhabələrdəndir.

Hz. Xədicə anamızın vəfatından sonra Hz. Peyğəmbərin ﷺ yenidən evlənməsində vasitəçilik edən bəxtiyar bir xanımdır.

Dini mövzuları öyrənmə xüsusunda çəkinmədən, məhrəm mövzuları belə Peyğəmbərimizdən ﷺ asanlıqla soruşan, məlumat almaq üçün səy göstərən bir elm aşiqi idi.

Mədinədə ilk vəfat edən mühacir Osman İbni Mazunun رضي الله عنه xanımıdır. Ümmü Şərik künyəsilə də tanınır.

O, Məkkədə dünyaya gəlmişdir. Atası Hakim ibni Ümeyyə, anası Daifə binti As İbni Ümeyyədir. İslamla şərəflənməsi ərinin vasitəsilə olmuşdur.

Osman İbni Mazun ﷺ cahiliyyə dövründə belə içki içməyən ağıllı bir gənc idi. Dostlarına mənim ağlımı başımdan alan, məndən daha aşağı səviyyəli insanları mənə güldürən içkini içmərəm deyərdi. Yaradılışı təmiz və dürüst bir insan idi.

Bir gün evə xoşbəxt bir şəkildə gülərüzlə gəldi. Xanımı Havlə binti Hakim ona:

“-Nə var nə yox ey Əbu Saib?” dedi. O da:

“-Hər şey yaxşıdır ey Ümmü Şərik! Məhəmmədə tabe oldum.Yenə dinə girdim. İslamla şərəflənən ilk on üç nəfərdən biri oldum. Axşam qardaşım Kudaməni də aparacağam” dedi.

Xanımı Havlə də heç tərəddüt etmədən mən də ey Əbu Saib! dedi.

Osman ibni Mazun ﷺ gülərək: “Sən də Kudamənin xanımı Safiyyə binti Xattab ilə..” dedi.

Hamısı birlikdə toplanıb Hz. Peyğəmbərin ﷺ yanına gəldilər. Onun hüzurunda Qurandan ayələr dinlədilər.Yeni din İslam haqqında məlumat topladılar. Kəlmeyi-şəhadət gətirərək İslamla şərəfləndilər.

Havlə binti Hakimin رضي الله عنها evində hüzur və səadət, könlündə isə böyük bir xoşbəxtlik vardı. Əri ilə birlikdə ibadət edir, sevgi və hörmətlə şən, firavan həyatlarını davam etdirirdilər.

Müşriklər müsəlman ailələrindəki sevgi, hörmət, yardımlaşma və qaynayıb-qarışmağa heyrət edir və bu cür ailələrin saylarının artdığını gördükcə hakimiyyətlərinin əllərindən çıxacağından qorxurdular. Buna görə müsəlmanların inkişafını, çoxalmasını əsla istəmirdilər. Xoşbəxtliklərini həzm edə bilmirdilər.

Yeni din İslam gündən-günə Məkkədə sürətlə yayılırdı. Allah Rəsuluna tabe olanların sayı çoxalırdı. Müşriklərin buna mane olmaq üçün əllərindən heç nə gəlmir və nə edəcəklərini bilmirdilər. Təhditlər, məhdudiyyətlər, əzab və əziyyətlər, hətta işgəncələr belə insanların İslamı qəbul etməsinə mane olmurdu.

Zülm və işgəncələr dözülməz hala gəlincə, müsəlmanlara hicrət izni verildi. İlk qafilənin rəisi olan Osman İbni Mazun رضي الله عنه on kişi, dörd qadın ilə birlikdə Həbəşistana hicrət etdi.

Orada hüzurla ibadətlərini icra etməyə və sakit həyatlarını yaşamağa başlamışdılar. Ancaq doğulub böyüdükləri məmləkətdən uzaq qalmağın həsrəti ilə yaşaayırdılar. Üç ay keçmişdi. Vətən

həsrəti ilə yanıb tutuşurdular. Bir gün qüreyşlilərin müsəlman olduqlarına dair bir xəbər eşitdilər. Bunu eşitdikdən sonra təkrar Məkkəyə qayıtdılar.

Ancaq təəssüflər olsun ki, müsəlmanlara edilən işgəncələrin davam etdiyini gördülər. Təkrar geri qayıda bilmədilər. Bir müddət də sıxıntılı günlər keçirməyi qəbul edərək yaxınlarının himayəsində doğulduqları şəhərdə yaşamağa səbir etdilər.

Havlə binti Hakim رضي الله عنها təqva sahibi, salehə bir xanım idi. Çoxlu ibadət edir, oruc tutardı. Zahid və abid bir həyatı vardı. İki cahan günəşi Peyğəmbərimizin xidmətində durmağı özünə şərəf bilirdi. Hz. Xədicə رضي الله عنها anamızın əbədi aləmə köç etməsindən sonra bir gün Peyğəmbərimizi ziyarətə getdi. Hüzuruna çatdıqda:

- “Ya Rəsulullah! Xədicənin yoxluğu gözümdən qaçmadı” dedi. Peyğəmbərimiz də:

- *“Bəli! Xədicə uşaqlarımın anası və evimin nəzarətçisi idi”* dedi.

Havlə رضي الله عنها bu gözəl cavabdan sonra yenidən Peyğəmbərimizə:

- “Ya Rəsulullah! Evlənmək istəmirsiniz?” deyə soruşdu.

Peyğəmbərimiz:

- *“Kiminlə?”* buyurdu. Havlə رضي الله عنها də:

- “İstər bakirə olsun, istərsə də dul” dedi.

Bundan sonra İki Cahan Günəşi Peyğəmbərimiz:

- *“Kimdir onlar?”* buyurdu.

Havlə:

- “Bakirə olan Hz. Aişə, dul isə Sevda binti Zəmadır” deyə cavab verdi

Peyğəmbərimiz Havləyə رضي الله عنها elçilik etməsi üçün izin verdi və:

- *Get onların hər ikisinə mənim haqqımda danış”* buyurdu.

Havlə رضي الله عنها sevincdən uçurdu. Bu şərəfli xidməti yerinə yetirmək üçün dərhal oradan ayrıldı.

Hz. Aişə və Hz. Sevda رضي الله عنها və ailələri ilə ayrı-ayrılıqda danışdı.

Allah Rəsulu ilə qohum olmağı kim istəməzdi? Ona xidmət etmək ən böyük şərəf idi. Ona yaxın olmaq ən böyük nemət idi.

Havlə رضي الله عنه elçi olaraq getdiyi hər iki ailənin də fikrini öyrəndi və onların bizim üçün şərəfdir

dediklərini və bir neçə çəkindikləri xüsusu da Hz. Peyğəmbərə çatdırdı.

Hz. Peyğəmbər ﷺ onların çəkindikləri xüsusları ortadan qaldıracaq, zehinlərində və könüllərində sual buraxmayacaq tərzdə cavablar verərək Havləni رضي الله عنه yenidən göndərdi.

Havlə رضي الله عنه hər iki ailəyə lazım olan açıqlamaları və Rəsulullahın cavablarını bildirdi. Zehinlərdəki suallar silindi.

Könülləri hüzur içərisində hər iki tərəfin istəyi ilə Hz. Aişə رضي الله عنها ilə nişan edildi.

Hz. Sevda رضي الله عنها anamızın əri ölmüş və beş balaca uşağı ilə dul qalmışdı. Himayəyə möhtac idi. İki Cahan Günəşi Hz. Peyğəmbərimizin də evində xidmətə ehtiyac var idi. Məkkədə Sevda binti Zəma رضي الله عنها anamızla nikahları oldu. Bir müddətdən sonra Hz. Peyğəmbərimiz ilə Hz.Əbu Bəkr رضي الله عنه hicrət etdi. Bundan sonra isə ailə üzvləri xanımlar və uşaqlar da Mədinəyə gətirildi.

Sevda رضي الله عنها anamız məscidin ətrafında inşa edilən otaqlarda yerləşdirildi. Hz. Aişə رضي الله عنها atasının evində idi.

Qısa bir zamandan sonra da Hz. Aişə رضي الله عنها ilə Hz. Peyğəmbərimizin nikahları oldu və toy ziyafə-

ti verildi. Hz. Aişə anamız da Sevda anamızın yanındakı boş bir otağa yerləşdirildi.

❁

Havlə ﵂ İki Cahan Günəşi Hz. Peyğəmbərimizin xoşbəxtliyinə vəsilə olan bu xeyir işi tamamlayaraq şərəfli bir xidməti yerinə yetirmə bəxtiyarlığına çatan bir İslam xanımı olaraq adını tarixə yazdırdı.

Əri Osman İbni Mazun ﵁ Mədinədə vəfat edən ilk səhabə və Cənnətul-baqiyə dəfn edilən ilk mühacirdir.

Havlə ﵂ ərinin qəbrinin başında: “Cənnət sənə mübarək olsun ey Əbu Saib!” demişdi. Sevgisini bu şəkildə ifadə etmək istəmişdi.

Hz. Peyğəmbər bu sözə qarşılıq olaraq Havləyə ﵂ bir xatırlatma edərək: *“Allah və Rəsulunu sevərdi desən kifayət edərdi”* buyurdu.

❁

Osman İbni Mazun ﵁ zahid və abid olaraq yaşamışdı. İki Cahan Günəşi Hz. Peyğəmbərimiz onun dəfn mərasimində: *“Ey Əbu Saib! Allah sənə rəhmət etsin! Dünyadan çıxıb getdin, amma nə sən ona meyl etdin, nə də o sənə...!* buyurdu.

Dəfn edildikdən sonra qəbrinin başına bir daş qoyub belə dedi:

*“Bu bizim sələfimizin (əvvəl gedənimizin) qəbridir. O, bizim ən yaxşı sələfimizdir”* buyurdu.

Mədineyi-Münəvvərədə daha sonra vəfat edən səhabələrə də öz sevgisini və hörmətini:

*“Xeyirli sələfimiz Osmana qovuş”* buyuraraq davam etdirmişdir.

❁

Havlə binti Hakim رضي الله عنها elm aşiqi olan fəzilətli bir xanım idi. Dini mövzuları soruşub öyrənmə xüsusunda heç vaxt çəkinməzdi. Bir gün Hz. Peyğəmbərimizə ﷺ:

- “Ya Rəsulallah! Qadın yuxuda ihtilam olarmı? Olarsa nə etməlidir?” deyə soruşdu.

Peyğəmbərimiz də:

- *“Belə bir şey olarsa qüsul abdəsti alsın”* buyurdu.

❁

Bir gün Hz. Aişə رضي الله عنها anamız Havləni رضي الله عنها ziyarət etdi. Onu pərişan bir vəziyyətdə, baxımsız bir vəziyyətdə gördü. Bundan sonra onun bu vəziyyətini bu sözləri ilə izah etdi:

“Gündüz oruc tutan, gecə namaz qılan, əri olmayan tək, tənha bir qadın” dedi.

Onun geyim-keçimə baxmayan, dünyaya dəyər verməyən abid, zahid və fəzilət sahibi bir xanım olduğunu açıqlayaraq ona qarşı hörmətini bildirdi.

Havlə binti Hakimin رضي الله عنها ərinin ölümündən sonra mehrini bağışladığını bildirərək Hz. Peyğəmbərimizə evlənmə təklif etdiyini, Hz. Aişə رضي الله عنها anamızın da bunu uyğun görməməsinə görə bu cür təkliflərin edilməsində heç bir problemin olmadığını bildirən ayənin nazil olduğu rəvayət edilir:

**“...Bir də Peyğəmbər onunla evlənmək istədiyi təqdirdə özünü** (mehrsiz) **Peyğəmbərə bağışlayan hər hansı bir mömin qadını - digər möminlərə deyil, yalnız sənə məxsus olmaq üzrə - sənin üçün halal etdik.”** (Əhzab, 33/50)

Daha sonra eyni surənin 51-ci ayəsi nazil olduğu zaman Havlədən رضي الله عنها ayrıldığına dair rəvayətlər də vardır.

Vəfat tarixi bilinməyən Havlə binti Hakim رضي الله عنها Rəsulullahdan ﷺ on beş hədis rəvayət etmişdir. Onlardan biri budur:

Havlə binti Hakimdən ﵂ rəvayət edildiyinə görə, “Rəsulallahı ﷺ belə buyurarkən dinlədim” dedi:

*“Kim bir yerdə qonaqlayıb sonra da* ***“Əuzu bi kəlimətilləhit-təmməti min şərri mə xaləq-*** *Yaratdıqlarının şərrindən Allahın mükəmməl kəlimələrinə sığınıram”. deyərsə qonaq olduğu o yerdən ayrılana qədər heç bir şey ona zərər verməz”.* (Müslim, Zikir 54)

Allah-Təaladan Havlə binti Hakim ﵂ kimi hər birimizi elm aşiqi, abid, zahid bir qul etməsini və şəfaətlərinə nail olmağımızı nəsib etməsini niyaz edirik.

Amin.

*Həzrət İkrimənin ﷺ Xanımı*

# HAKİM BİNTİ HARİS

*——— radiyallahu anhə*

Ümmü Hakim binti Haris ﵂ Məkkənin fəthi günü İslamla şərəflənən bir xanım səhabədir.

İslamın amansız düşmənlərindən olan əri İkrimə İbni Cəhlin hidayətə çatmasına vəsilə olan cəfakeş, çalışqan, fədakar bir xanımdır.

Rəsulullahdan ﷺ izin alaraq əri İkriməni tapmaq üçün çöllərə düşən, canını təhlükələrə atmaqdan çəkinməyən, səbir və mətanət sahibi bir həyat yoldaşıdır.

O, Qüreyş rəislərindən İslamın qatı düşməni olaraq bilinən *Haris İbni Hişamın qızıdır. Anası Fatimə binti Vəlid binti Muğiyrədir.*

O, Cahiliyyə dövründə intiqam hissi ilə yaşayırdı. Uzun bir zaman İslama qarşı Hind binti Utbə ilə birlikdə hərəkət edib.

Bədir döyüşünün intiqamını almaq üçün Qüreyşin kişilərini və xüsusilə ərlərini davamlı təşviq edən kin və hiddət dolu bir qadın idi.

Uhud döyüşünün meydana gəlməsində öndə gedən, dəf çalaraq, şeirlər oxuyaraq kişiləri döyüş meydanına toplayan, inandığı dava uğrunda canını fəda etməkdən çəkinməyən iradəsi qüvvətli bir xanım idi.

O, Məkkənin fəthi günü Rəsulullahın ﷺ sonsuz mərhəməti və dözümü qarşısında Haqqa təslim oldu. İntiqam hissləri və düşmənlik duyğuları əriyib yox oldu. Müsəlmanların Kəbədə xuşu içərisində ibadət etdiklərini gördü. Camaatla namaz qılmalarına heyran qaldı. Birlikdə qiyam, rüku və səcdəyə getmələrinin təsirində qalaraq dostu Hind ilə birlikdə İslamın nuruna qaçdı. İslamla şərəflənməsi belə oldu:

İki Cahan Günəşi Peyğəmbərimiz Məkkəyə girdiyi zaman ilk iş olaraq Kəbəni bütlərdən təmizlədi. Allahın birliyini, İslamın ucalığını, azanlar oxudaraq, namazlar qıldıraraq göstərdi. Əshabı ilə birlikdə xuşu içərisində camaatla Allahın hüzurunda dayandı. İslamın gözəlliklərini, əfvini,

sonsuz mərhəmət və dözümünü mülayim davranışları ilə müşriklərə göstərdi. Onlardan heç kimi əsir almadı. Heç kimi qınamadı. Keçmişdə olanları üzə vurmadı. Sanki onlarla yeni tanış olurmuş kimi bütün Məkkə xalqına *“sizlər sərbəstsiniz”* deyə elan etdi.

Onların daxili dünyalarında hiss etdikləri çətinlikləri, dərdi, kədəri şəfqəti ilə aradan qaldırdı. Düşmənlikləri mərhəməti ilə əridib yox etdi. Yeni bir səhifə açdı. Bundan sonra qureyşlilər qruplar halında İslamı qəbul etdilər.

Peyğəmbərimiz ﷺ fəthin ikinci günü Səfa təpəsində yeni müsəlman olanlardan beyət almağa başladı. Qureyşin rəisi Əbu Sufyanın xanımı Hind Binti Utbə bir qrup xanımla Rəsulullaha beyət etməyə gəldi.

Ümmü Hakim də bu qrupun içərisində idi. Kişilərin beyəti qurtardığı zaman qadınların beyətinə başlandı.

Rəsulullah ﷺ xanımlarla beyəti Hz. Ömərin رضي الله عنه vasitəsilə edirdi. Bu mövzularda onlardan söz aldı. Onlara belə deyildi:

*“Allaha heç bir şeyi ortaq qoşmamaq və oğurluq etməyəcəyiniz haqda mənə beyət edin. Zina etməyin, uşaqlarınızı öldürməyin və iftira atmayın.*

*Doğru olan bir işdə mənə qarşı gəlməyin”.* deyə Hz. Ömərə ﷺ bunları deməsini əmr etdi.

Xanımların arasından Hind ilə Ümmü Hakim ayağa qaxdı və söz alaraq: “Ya Rəsulallah! Sən bizə anacaq doğrunu və gözəl əxlaqı əmr edirsən”. deyərək qəbul etdiklərini bildirib beyət etdiklərini söylədilər. Hamısı birlikdə kəlmeyi-şəhadət gətirərək İslamla şərəfləndilər.

Ümmü Hakim binti Haris ﷺ İslamı qəbul edər-etməz ilk xidməti öz ərinə qarşı oldu. Onun hidayətinə vəsilə olmaq üçün Rəsulullahın ﷺ yaxınlığına gəldi və İkriməyə möhlət verməsini istəyərək:

“Ya Rəsulallah İkrimə öldürüləcəyindən qorxduğu üçün Yəmən tərəfə qaçdı. Ona möhlət ver”. dedi.

Şəfqət və Rəhmət Peyğəmbəri ﷺ: *“Ona möhlət verilmişdir”.* buyurdu.

Bu müjdəni alan Ümmü Hakim ﷺ dərhal işə başladı. Yunan əsilli köləsi Akkəni yanına götürərək Yəmənə tərəf yola çıxdı.

Min bir əziyyət və böyük ümidlərlə səhraları aşarkən köləsi Akkənin mənfur düşüncələri və pis niyyətləri ilə qarşılaşdı. Ancaq o qüvvətli iradə sahibi, özünə güvənən və dəyanətli xanım idi.

Köləsinə məhəl qoymayaraq Yəmənə çatdı. İlk çatdığı yerdə onu özündən uzaqlaşdırdı. Sonra Tihamə sahillərinə çatdı.

Bir gəmi yola düşürdü. İkrimənin bu gəmidə ola biləcəyini düşünərək uzaqdan: "İkrimə! İkrimə! Geri qayıt İkrimə!" deyərək səslənməyə başladı.

Bu səsi eşidən İkrimə qarşısında xanımı Ümmü Hakimi gördüyü zaman gəmidən düşüb yerə endi. Böyük bir həyəcan və sevinc içərisində ərinə:

"İkrimə! İnsanların ən mərhəmətlisindən sənə möhlət aldım. Haydı, geri qayıt!" dedi.

İkrimənin qəlbi yumşalmışdı. Ömrü boyu düşmənçiliklə keçirdiyi günlər ağlına gəldi. Bütün etdiklərinə peşman olmuşdu. Rəhmət Peyğəmbərinin sonsuz şəfqəti və mülayim davranışı, daxilindəki intiqam hisslərini və düşmənçilik duyğularını bir anda əridib yox etdi. Qəlbində Məhəmmədül-Əminə qarşı bir sevgi və hörmət oyandı. Qəlbi İslamın nuruna qarşı açıldı.

Xanımının bu qədər əzab-əziyyətlərə qatlanaraq səhraları aşıb gəlməsi onu çox sevindirdi. "Mən də geri dönməyə niyyət etmişdim". deyərək sevincini ifadə etdi.

Ümmü Hakim رضي الله عنها əri İkrimə ilə birlikdə geriyə qayıtmaq üçün yola düşdülər. Yunan əsilli kölənin

etdiklərini öyrənən İkrimə ilk iş olaraq onu həll etdi. Pis niyyətinin cəzasını həyatı ilə ödətdi.

Sonra xanımı ilə söhbət edib, yeni bilgələr əldə edərək səhraları aşmağa çalışdı. Qəlbini və beynini daim məşğul edən suallara cavab axtardı.

Müsəlmanların Məkkəyə girişlərini, Qureyşin vəziyyətini, Rəsulullahın ﷺ münasibətlərini və özü haqqında necə möhlət aldığını öyrənmək istədi.

Ümmü Hakim رضي الله عنها bu sualları fürsət bildi. İkrimənin qəlbini hüzura qovuşdurmaq üçün müsəlmanların Kəbədəki ibadətlərini, Hz. Peyğəmbərin ﷺ hər kəsə qarşı eyni davranışını, bütün hər kəsi əfv edib bağışlamasını və qureyşlilərin qrup şəklində müsəlman olduqlarını danışdı və özünün də Hind ilə birlikdə İslama girdiyini söylədi.

Bu xəbərlərlə İkrimənin qəlbi artıq yumuşalmışdı. Bu qədər düşmənçiliyə baxmayaraq Allah Rəsulunun heç bir şey olmamış kimi sevgi, şəfqət və mərhəmətlə davranması, keçmişi silib atması, hər kəsi şəfqət və mərhəmətlə bağrına basıb sərbəst buraxması İkrimədə çox böyük heyranlıq oyandırdı. Səhralarda sürətlə yol alıb bir an əvvəl Rəsulullahın yanına çatmaq istədi. Bu eşq və məhəbbət içərisində Məkkəyə çatdı.

Ümmü Hakim ilə birlikdə Peyğəmbərimizin yanına gəldi və kəlmeyi-şəhadət gətirərək İslamla şərəfləndi.

İkrimə İbni Əbu Cəhl رضي الله عنه sevinc göz yaşlarının içərisində:

-“Ya Rəsulullah! Mənə söyləməyim lazım ən gözəl şeyi öyrət!” dedi.

Peyğəmbərimiz ﷺ də ona:

*-“Allahdan başqa ilah olmadığına və Məhəmmədin Allahın qulu və Rəsulu olduğuna şəhadət gətir”* dedi.

İkrimə:

-“Başqa nə söyləyim, ya Rəsulullah?” dedi.

Peyğəmbərimiz:

*-“Allah və burada olanlar şahiddir ki, mən müsəlmanam, mühacirəm, mücahidəm”* buyurdu.

İkrimə:

-“Allah və burdakılar şahid olsun ki, mən müsəlmanam, mühacirəm, mücahidəm”. dedi.

-“Sonra Peyğəmbərimiz İkrimə ilə Ümmü Hakimin رضي الله عنهما nikahlarını yenidən bağladı.

Onlar yeni bir həyata qovuşmuşdular. Bir-birinə qarşı daha xidmətkar, hörmətli və məhəbbət-

li idilər. Sevgiləri əbədiləşmişdi. İman kölgəsində və xoşbəxtlik içində günləri keçir, İslamı yaşamaq və yaymaq üçün səy göstərirdilər.

Artıq İkrimə gündüz igid, gecə abid olaraq İki Cahan Günəşi Peyğəmbərimizin yanından heç ayrılmadı. İndi o, Həzrət İkrimə olmuşdu.

❀

İkrimə elə dəyişmişdi ki, sevimli xanımı Ümmü Hakim رضي الله عنها belə məəttəl qalmışdı. Qurana elə sarılmışdı ki, "Bu mənim kitabım!... Bu Rəbbimin göndərdiyi kitab!... deyərək əlindən və dilindən düşürmürdü.

Səhər-axşam Quranla dost oldu. Onu gözyaşları içərisində oxuyub mənasını dərin-dərin düşündü. Bir gün xanımı Ümmü Hakim رضي الله عنها yanına gəldi və:

-"Sənin kimi ağlayaraq Quran oxuyan görmədim" dedi. O da:

-"Qorxuram, Ümmü Hakim, qorxuram! Tez-tez müşrik olanda etdiklərim ağlıma gəlir!..." dedi.

Ümmü Hakim sevimli ərini təsəlli etmək niyəti ilə İslamı qəbul etdiyi gün Rəsulullahın ﷺ:

*-"Ya Rəbbi! İkriməni bağışla! Etdikləri bütün pislikləri əfv et!"* deyə dua etdiyini xatırlatdı.

❁

Ümmü Hakim رضي الله عنها ərinə xidmət etməkdən zövq alırdı. Onun hidayəti üçün səy göstərib yanından ayrılmadığı kimi İslamın gözəlliklərini də onunla birlikdə yaşayırdı.

Bir gün İkrimə sevimli xanımından icazə alaraq çölə çıxmaq istədi. Ümmü Hakim haraya? dedi. O da:

“Eşitdim ki, büt düzəldən biri var. Gedib onları sındıracağam” dedi.

Ümmü Hakim رضي الله عنها sevimli ərinə gülümsəyərək:

“Ey İkrimə! Əvvəlcə qəlblərdəki və beyinlərdəki bütləri sındır. Sən arxanı dönüncə palçıqdan bütləri yenə düzəldərlər...” dedi.

❁

Ümmü Hakim رضي الله عنها cəsarətli və şücaətli bir xanım idi. Hz. Əbu Bəkr رضي الله عنه dövründə Bizanslılarla olan Yərmük döyüşündə əri İkrimə və oğlu Amr ilə birlikdə vuruşurdu.

Sevimli oğlu və əri bu döyüşdə elə qəhrəmanlıqlar göstərdi ki, komandir Xalid İbni Vəlid رضي الله عنه İkriməyə رضي الله عنه mane olmaq istədi. İkrimə isə qaçırdığı fürsətləri düzəltmək niyətindəydi. Allah yolunda şəhid olmaq arzusu onun gözünü, könlünü

bürümüşdü. Gözü dünya ilə bağlı heç nəyi görmürdü. Dərin bir sevgi və hörmətlə komandirinə:

“Məni burax, Xalid! Əvvəlcə etdiklərimi ödəyim” dedi.

Var gücü ilə döyüş meydanına atıldı. Böyük qəhrəmanlıqlar sərgilədi. Bir çox yerindən yaralar aldı, ancaq geri addım atmadı. Həsrətini çəkdiyi şəhidliyi əldə edənə qədər savaşdı. Nəhayət, dünyəvi susuzluğunu şəhadət şərbətini içərək aradan qaldırdı.

Ümmü Hakim رضي الله عنها Yərmükdə həm şəhid xanımı, həm də şəhid anası oldu.

❁

O, Əcnadeyn döyüşündə də qəhrəmanlar kimi vuruşdu. Bir çadır dirəyi ilə yeddi düşmən əsgərini öldürdüyü rəvayət edilir.

Onun harada və nə vaxt vəfat etdiyinə dair mənbələrdə hər hansı bir məlumat  yoxdur.

Allah-Təala onlardan razı olsun. Bizlərə də onların qəhrəmanlıqlarından, fədakarlıqlarından nümunə götürməyi və şəfaətlərinə nail olmağı nəsib etsin.

Amin.

*Hicrət Yolunun Gözətçisi*

# Ümmü Mabəd

——————— *radiyallahu anhə*

Ümmü Mabəd ﵁ hicrət yolunun üzərindən gəlib keçən yolçulara xidmət edən bir neçə heyvanıyla çadır həyatı yaşayan bir gözətçidir.

Rəsulullahı ﷺ hicrət yolculuğu zamanı qonaq edən, süd və ət ikram edən bir bəxtiyar xanımdır.

Qıtlıq zamanı çadırına gələn yolçuların su və yemək ehtiyaclarını aradan qaldıran, comərdliyi ilə məşhur olan xanım səhabədir.

Rəsulullahın ﷺ duası və mübarək əllərini sürtməsiylə qısır qoyunundan süt alan və hər gün o heyvandan süt sağıb qonaqlara ikram edən könlü sevgi dolu bir anadır.

O, Məkkənin Kudeyd bölgəsində bir çadırda otururdu. Əsil adı Atikədir. Ümmü Mabəd künyəsi

ilə tanınır. Atasının adı Xalid İbni Huleyfdir. Huzaa qəbiləsinə mənsubdur.

Ümmü Mabəd ağıllı, iffətli və güclü bir qadın idi. Əmisinin oğlu Təmim İbni Abdiluzza ilə evli idi.

Məkkəyə yaxın Kudeyd bölgəsində səhrada yaşayırdı. Qoyun sürüləri var idi. Əli açıq, comərd bir qadındı. Çadırına gələn yolçulara su və yemək verirdi. İçmək üçün süt, yemək olaraq da qoyun kəsib bişirib ət ikram edirdi.

Onun bu gözəl əxlaqı, comərtliyi İslamın nuruna qovuşmasına vəsilə oldu. İki Cahan Günəşi Hz. Məhəmmədi ﷺ hicrət zamanı çadırında qarşısında gördü.

O, sevgi dolu, əliaçıq, könlü zəngin comərd bir ana idi. Gündüzləri həmişə çadırdan çıxıb çöldə otururdu. Gələn gedən yolçulara bir şey ikram etmək üçün gözləyirdi.

Bir gün Allah Rəsulunun ﷺ çadırına gələcəyini hardan bilərdi?

İki nurüzlü insanın qarşısına gəlib ondan yeməyə-içməyə bir şeyin varmı? deyə soruşacaqlarını necə təxmin edə bilərdi?

Onların vəsiləsi ilə necə bərəkətlərə qovuşacağını, qısır olan qoyunlarından belə süd alaca-

ğını və uzun illər o heyvanların südü ilə yolçuları doyuracağını necə fikirləşə bilərdi?

Bundan başqa onunla insanlar sayəsində İslamın nuruna qovuşacağını hardan ümid edə bilərdi?

Budur, onun gözəl əxlaqı və İslamla şərəflənmiş hekayəsi:

❀

"Ümmü Mabəd öz ətrafında comərdliyi ilə tanınan, qonaqpərvər, saf və təmizqəlbli bir xanım idi. Quraqlıq, qıtlıq illərində Kudeyddəki çadırının qarşısında oturar, gələn gedən yolçuların su və yemək ehtiyaclarını qarşılamağa çalışardı.

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ də hicrət yolçuluğunda dostları Hz. Əbu Bəkr ؓ, Amir İbni Füheyrə və Abdullah İbni Ureykit ؓ ilə birlikdə Ümmü Mabədin çadırına baş çəkdi.

Peyğəmbərimiz ona:

-*"Süd varmı?"* deyə soruşdu.

O da:

-"Vallah, yoxdur!" deyə cavab verdi. Peyğəmbərimiz ﷺ çadırın ətrafında kiçik, zəif bir heyvan gördü.

-*“Bu nədir?”* dedi.

O da:

-“O, sürüdən geri qalmış, zəif, dərmansız, qısır bir qoyundu” dedi.

Peyğəmbərimiz:

-*“Onu sağmağa icazə verərsiniz?”* dedi.

Ümmü Mabəd də:

-“Əgər onda süd tapa bilərsinizsə, sağın” dedi. Qoyunu tutub yanına gətirdi.

Peyğəmbərimiz ﷺ bəsmələ çəkərək heyvanı sağmağa başladı və: *“Ey Allahım! Qoyununu bərəkətli et!”* deyə dua etdi.

Qoyunun məmələri birdən süd ilə doldu. Peyğəmbərimiz  böyük bir qab dolana qədər süd sağdı.

Əvvəlcə südü Ümmü Mabədə uzadıb içməsini söylədi:

O da:

-“Sizin içməyiniz daha yaxşı olardı” dedi.

Peyğəmbərimiz də:

-*“Qövmün sulayıcısı onlardan sonra içməlidir”* buyurdu və qabı ona verdi. Ümmü Mabəd doyunca içdi.

Sonra Rəsulullah ﷺ qabı Əbu Bəkrə رضي الله عنه uzatdı. O da doyunca içdi. Ondan sonra da digərləri sütdən doyunca içdilər.

Ən axırda İki Cahan Günəşi Hz. Peyğəmbər ﷺ qabı aldı və: *"Qövmü su ilə təmin edən onlardan sonra içər"* buyuraraq südü içdi.

Hz. Peyğəmbər ﷺ yenidən o qısır qoyunu sağmağa başladı. Bir qab da doldurub Ümmü Mabədə verdi.

O, bir ana kimi bişirdiyi ət yeməyindən də qonaqlara ikram etdi. Hətta azuqə də hazırlayıb onlara verdi. İki gözəl insanı salamatçılıqla yola saldı.

❀

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ və yoldaşları Ümmü Mabədin yanından ayrıldıqdan bir az sonra əri Əbu Mabəd qoyun sürüsü ilə birlikdə çadıra gəldi. Qabı südlə dolu gördüyü zaman təəccübləndi.

-"Bu süd haradan gəldi? Çadırda sağılan heyvan yoxdur!" dedi.

Xanımı Ümmü Mabəd gülümsəyərək:

-"Bizə üzü nurlu bir nəfər gəldi və belə etdi". dedi və baş verən bütün hadisəni tək-tək danışdı.

Əbu Mabəd:

-“Vallah! O qureyşlilərin axtardığı adamdır. Ey Ümmü Mabəd! Yaxşısı budur sən onu mənə tərif et!” dedi.

❀

Xanımı Ümmü Mabəd Hz. Peyğəmbərimizin ﷺ görünüşünü fikrində qaldığı qədər heyranlıqla belə tərif etdi:

-“Gördüyüm elə bir kimsə idi ki, üzü nurlu və gözəl xasiyyətli idi.

Bütün görünüşü öz yerində idi.

Nə qarnı böyük, nə də başı kiçik idi.

Bədəni, bədən quruluşu və siması xoş idi.

Gözləri qara, kirpikləri çox, səsi nazik idi.

Gözünün ağı çox ağ, qarası da qapqara idi.

Gözləri sürməli, qaşlarının ucu incə, saçları isə tünd qara idi.

Boynu bir az uzun və yüksək, saqqalı isə sıx idi.

Susduğu zaman sükunət və təmkin, danışdığı zaman isə gözəlliklər görünürdü.

O gülərüzlü və şirin sözlü idi.

Kəlimələr onun mübarək ağzından tək-tək çıxır, sanki düzülmüş inci kimi şirin-şirin tökülürdü.

İfadələri dəqiq və açıq idi.

Cümlələri nə az, nə də çox idi.

Uzaqdan baxıldığı zaman insanların ən heybətlisi, yaxından baxıldığı zaman isə çox şirin və cəlbedici idi.

Orta boylu idi. Boyu nə uzun, nə də qısa idi.

Yanında yoldaşları var idi. Xidmət üçün çalışırdılar.

Hörmət sahibi bir adam idi.

Kobud üzlü deyil, gülərüz idi.

Heç kimin qəlbini qırmaz, təhqir etməz və eyibini axtarmazdı” dedi.

Əbu Mabəd xanımının bu qədər şirin danışığından sonra:

-“Vallah, bu adam, Məkkədə bizə bəhs edilən Qureyşlidir.

Ey Ümmü Mabəd! Əgər mən ona rast gəlsəydim, ondan ona dost olmağımı istəyərdim. Yenə də buna bir imkan tapmağa çalışacağam”. dedi.

İki Cahan Günəşi Hz. Peyğəmbərimizə ▯ qarşı könlündəki sevgi və həsrətini ifadə etdi.

❀

Ümmü Mabəd ağıllı, zəkalı, iffətli, güclü, qüvvətli bir xanım idi. Müşriklər qəzəbli bir halda onun çadırına gəldilər və:

-“ O haraya getdi!” dedilər.

Ümmü Mabəd də:

-“Kim?” dedi.

Onlar da:

-“Forma və simasını tərif edərək Məhəmməd” dedilər.

Ümmü Mabəd müşriklərin qarşısında olduqca böyük dəyanət nümayiş etdirdi. Sakit duraraq onları gecikdirmək istədi. Müşriklər bir cavab ala bilmədikləri zaman yenidən:

-“Sən onun hara getdiyini bilirsənmi?” deyərək kobud və sərt davranmaq istədilər.

O da:

-“Sizin nə dediyinizi başa düşmürəm. Ancaq mənim bir qonağım var idi. O qısır qoyundan süd sağdı!” dedi.

Müşriklər təzyiqi artırdıqları zaman Ümmü Mabəd onları belə təhdid etdi:

-"Məndən əl çəkib getməsəniz bütün qəbiləmi sizin əleyhinizə çağırıb başınıza bəla edərəm". dedi.

Ümmü Mabədin qəti davranışları müşrikləri çarəsiz vəziyyətdə qoydu. Daha çox mübarizə aparmadan və cavab almadan ayrılmaq məcburiyyətində qaldılar. Çünki onlar Ümmü Mabədin qəbiləsi arasında şərəf və etibarını bilirdilər.

O, öz qövmünə bir kəlimə desəydi onlar dərhal silahlanıb onun köməyinə gələrdi. Ümmü Mabəd sanki o bölgədə bir yol gözətçisi idi.

❁

Hicrət yolçuları Sevgili Peyğəmbərimiz və Onun yoldaşları Mədineyi-Münəvvərəyə çatdıqdan sonra, Ümmü Mabəd əri və körpə uşağını götürərək Mədinəyə gəldi.

Əbu Mabəd və övladı Hz. Peyğəmbərin ﷺ hüzuruna gəldilər və kəlmeyi-şəhadət gətirərək İslamla şərəfləndilər.

Ümmü Mabəd xanımların arasında idi. İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ onlara da salam verdi və:

*-"Zina və oğurluq etməmək, uşaqlarınızı öldürməmək, iftira atmamaq və heç bir həqiqətə*

*qarşı üsyankar davranmamaq üçün beyət edin”.* buyurdu.

Xanımlar hamısı birlikdə: “Bu şərtləri qəbul edərək beyət etdik Ya Rəsulallah!” dedilər.

Ümmü Mabəd isə:

-“Ya Rəsulallah! Bizə qadağan edilən həqiqət nədir?” deyə sual etdi.

Peyğəmbərimiz də ona:

-*“Ölünün arxasından bağırıb, fəryad edərək ağlamamaqdır”.* buyurdu.

Bu şəkildə Ümmü Mabəd də beyət edərək İslamla şərəflənənlərin arasına qatıldı.

Ümmü Mabəd رضي الله عنها İslamla şərəfləndikdən sonra bəzi şeyləri öyrənmək üçün daim fürsət axtardı. Öyrəndiyi gözəllikləri də dərhal öz həyatında tətbiq etməyə çalışdı.

Bir gün əri Əbu Mabud رضي الله عنه namaz qılmaq üçün getdiyi məsciddən gec gəlmişdi. Ona:

-“Nə üçün gecikdin?” dedi. O da:

-“Geri qayıtdığım zaman Ənəs ibni Malikin رضي الله عنه Evsli bir nəfərlə danışığına rast gəldim. Onların söhbətlərini dinlədim”. dedi.

Ümmü Mabəd:

-“Rəsulallahın ﷺ xidmətçisi onlara nə dedi?” deyə sual etdi.

Əbu Mabəd رضي الله عنه da:

Ənəs onlara Rəsulullahdan ﷺ eşitdiyi bir hədisi söylədi. Belə dedi:

*-“Kim İxlas surəsini Fatihə ilə birlikdə dəstəmazlı vəziyyətdə yüz dəfə oxuyarsa Allah onun dərəcəsini yüksəldər. Cənnətdə ona bir imarət inşa edər. Sanki o, Qurani-Kərimi otuz üç dəfə oxumuş kimi savab qazanar”.*

Ümmü Mabəd رضي الله عنها bu hədisi eşitdikdən sonra həyatının sonuna qədər bu duanı oxudu. Fatihə və İxlası dilindən düşürmədi. Dəstəmazlı vəziyyətdə bol-bol oxudu.

O, Rəsulullahın ﷺ belə dua etdiyini nəql edir:

*-“Allahım! Qəlbimi nifaqdan, əməlimi riyadan, dilimi yalandan, gözümü xəyanətdən təmizlə. Çünki Sən xain gözlərin və qəlblərin gizlədiyini bilirsən”.*

Ümmü Mabəd رضي الله عنها Hz. Əbu Bəkr رضي الله عنه xəlifə seçildiyi zaman onun ziyarətinə getdi. Əbu Bəkr رضي الله عنه

onu gördüyü zaman gülümsədi. Rəsulullah ﷺ ilə birlikdə hicrət etdiyi günü xatırladı. Onun hal və əhvalını soruşdu və mübarək qoyunun sahibəsinə hədiyyələr verdi.

Hz. Ömər ؓ dövründə şiddətli bir qıtlıq olmuşdu. Bu mübarək qoyundan səhər, axşam süd sağdıqlarına dair rəvayətlər nəql edilir.

Allah-Təala Ümmü Mabədin ؓ qonaqpərvərliyindən, comərdliyindən bizlərə də qismət etsin və şəfaətlərinə çata bilməyi nəsib etsin.

Amin.

*Əbu Cəhlə Meydan Oxuyan*

# Həzrət Zinnirə

———— *radiyallahu anhə*

Həzrət Zinnirə رضي الله عنها ilk müsəlman olanlardandır.

Məkkənin azğın müşrikləri tərəfindən ən ağır işgəncələrə rəva görülən, gözlərini itirənə qədər döyülən, zülm görən, ancaq inam ruhunu itirməyən bir xanımdır.

Əbu Cəhlin ağıla belə gəlməyən işgəncələri qarşısında imanından aldığı güclə azğın düşmənə dirənən, meydan oxuyan bir qəhrəmandır.

Rəbbimizin lütfü ilə gözlərinə yenidən qovuşan, imanda səbatın mükafatını dünyada ikən görən imanlı bir xanımdır.

Hz. Əbu Bəkr رضي الله عنه tərəfindən alınaraq, işgəncədən xilas olan və kölələkdən azad olunaraq hürriyyətinə qovuşan bir bəxtiyardır.

İmanda səbatın ən gözəl örnəyini verən mübarizədən əl çəkməyən əzimli və iradəli bir xanım səhabədir.

O, Məhzun oğulları və ya Əbdüddar oğullarından bir müşrikin cariyəsi idi. İslamın ilk günlərində Məkkə səmalarında parlayan İslam günəşinin nuruyla könlünü aydınlatdı. Haqq yolunu tapdı və ilk müsəlman olan xanım səhabələrdən oldu.

Zinnirə رضي الله عنها müşriklər tərəfindən ən ağır işgəncələrə məruz qalan qadın kölələr arasında idi. Onun sahibi qatı bir İslam düşməni idi.

İslamı ilk qəbul edənlər həmişə əzabkeş möminlər olub. Azğın müşriklər kimsəsiz, qərib, kasıb müsəlmanlara çox əzab və cəfa çəkdirmişdilər.

Hər hansı bir qəbilədən İslamı qəbul edən insanları həbs edər, döyər, ac və susuz saxlayar, hətta isti, qızğın qumlara yatırar, işgəncə edərdilər. Kimsə buna qarışa bilməz və haqqını tələb edə bilməzdi.

Necə tüklər ürpərdən bir hərəkət, nə qədər zalım bir davranışdır. Tam bir cəhalət, qaranlıq və zülm dövrüdür.

İnsanlıq belə bir qaranlıq və dəhşət içərisində ikən İslam günəşi dünyamızı, Rəsulullahın ﷺ nuru könüllərimizi aydınlatdı.

Məkkədə parlayan nur qısa bir zamanda digər ölkərə də yayıldı. Sevgi, xidmət və ədalətlə insanlar insan olmağı öyrəndi. Allah qatında hər kəsin bərabər olduğunu öyrəndilər. Şərəf və üstünlüyün ancaq təqva ilə hərəkət etdiyini başa düşdülər.

Məkkədə qadın-kişi, azad-kölə, zəngin-kasıb hər kəs İslamla şərəflənmək üçün can atmağa başladı. Allah Rəsuluna beyət etmək üçün fürsət axtardılar. Qadın kölələr arasında həyatını davam etdirən Zinnirə Xatun fürsət tapıb İslamla şərəfləndi.

Onun İslamı qəbul etdiyini eşidən sahibinin ağlı başından çıxdı. Necə ola bilər ki, bir kölə sahibindən xəbərsiz öz iradəsi ilə hərəkət etsin? Nə olur olsun onu dinindən döndərməli idi. Sahibi o dəqiqə hərəkətə keçdi.

Onu fikrindən geri döndərmək mümkün deyildi. İman qəlbə girincə onu çıxarmaq asan deyil. Zalım onun ancaq zülm və işgəncə ilə keçəcəyini sanırdı. Buna görə də Zinnirəyə hər cür işgəncəni verdi.

Onu ağla gəlməyən əzab və cəfalara məruz qoydu. Ancaq Zinnirə رضي الله عنها imanından dönmədi.

Həzrət Zinnirənin imanındakı bu səbatı sahibini dəli edirdi. Bu qədər işgəncəyə baxmayaraq o, hələ də “Allah, Allah” deyirdi.

Bir dəfə olsun Lat və Uzzanı söylədə bilməmişdi. Sahibi artıq yorulmuşdu. Onunla bacara bilməyəcəyini başa düşüncə işi Əbu Cəhlin öhdəsinə buraxdı.

Kin və qəzəbindən quduran azğın müşrik Əbu Cəhl canavarlar kimi, zəif, biçarə qadına hücum etdi. Zinnirə Xatunu qamçılar altında inlətdi. Hətda hirsi soyumayan vəhşi müşrik var gücüylə günahsız, əldən düşmüş qadını boğdu. Əllərinin yanlarına düşdüyünü görüb onu öldü zənn edib buraxdı.

Zalımın zülmündən başqa nəyi var. Ağla gəlməyən işgəncələr Zinnirə Xatunun üzərində sərgiləndi. İslam qəhrəmanı o mübarək xanım dözülməz ağrılara məruz qaldı və gözlərini itirdi. Ancaq əsla zalıma boyun əymədi və imanından dönmədi.

Özünü güclü, qüvvətli zənn edən Əbu Cəhl də çarəsiz qaldı. Nə edəcəyini bilmədi.

İmanın bir nur və güc qaynağı olduğunu başa düşə bilmədi.

Allah və Rəsuluna inanmağın səbir, səbat, dözüm gücü verdiyini bilmədi.

İnanan insanın heç bir zaman zülmə boyun əyməyəcəyini təxmin edə bilmədi.

Bir qadının bu qədər açıq-aşkar meydan oxuyacağını heç düşünmədi.

Zülmlə, işgəncə ilə İslama mane olacağını zənn etdi. Təəssüf ki, heç bir mömini geri döndərə bilmədi.

Zinnirə Xatunun göstərdiyi qəhrəmanlıq azğın müşriki lap çaşdırmışdı. Bu necə igidlik, necə mərdlikdir. Heç cürə qəbul edə bilmirdi. Onun hansı şərtlər altında olursa olsun imanından dönməməsi Əbu Cəhlin mənfur niyyətini boşa çıxartdı.

Həzrət Zinnirə gözlərini itirmişdi, amma imanını əsla!.. Zülmlə bir nəticəyə gələ bilməyən azğın müşrik Əbu Cəhl, o mübarək xanımı lağa qoymağa başladı:

-"Gördünmü Lat və Uzza sənin gözünü də kor etdi!" dedi. Müşrikin bu sayıqlamalarına Zinnirə Xatun bütün səmimiyyətilə belə cavab verdi:

-"Xeyr, vallah, xeyr! Sizin tanrı deyə ibadət etdiyiniz daş və odun parçasından başqa bir şey deyil.

Vallah bu belə deyil! Mənim gözümü belə edən onlar deyil.

Lat və Uzza nə fayda, nə də zərər verə bilər. Onlarda belə bir güc yoxdur. Onlar heç nəyi görə bilməzlər. Bu yalnız Rəbbimin işidir.

Mənim Rəbbim yenidən gözümü geri verməyə, məni gördürməyə də qadirdir!” dedi.

Bu necə iman!... Necə dözüm!... Necə səbir!... Necə sədaqətdir!... Gücünü imanından alıb dirənmək!... Allah və Rəsuluna təslimiyyətin ən gözəl nümunəsini verməkdir.

Səbir və səbat ilə müşriklərin təhqirlərinə meydan oxumaqdır. Doğrunu hər yerdə deməkdir.

Allaha yaxınlığın ucalığı ilə dik durmaq, imanında sabit olmaqdır.

Və Rəbbimizin dünya və axirət ikramlarına nail olmaqdır.

Görən gözlərə yenidən qovuşmaqdır!

Bəli! Həzrət Zinnirə رضي الله عنها belə uca bir imana sahib idi. O: “Mənim Rəbbim gözümü açmağa qadirdir” deyirdi.

Kainatı yoxdan var edən, insanı, günəşi, ayı, ulduzları, heyvanları, bitkiləri yaradan, onları idarə edən və onların həyatlarını davam etdirən ucaların ucası Rəbbimizə bu iş heç ağır gələrdimi?

Əlbəttə, Onun hər şeyə gücü çatardı. İlk yaratdığı kimi yenidən diriltməyə də qadirdir. Necə ki, günün ilk işıqlarıyla Zinnirə Xatunun da dünyası işıqlandı. Gözləri əvvəlki halına geri qayıtdı. Görməyən gözləri görməyə başladı. Məkkəli müşriklər Zinnirə Xatunun gözlərinin açıldığını gördükləri zaman məəttəl qaldılar. Bütlərinə qarşı olan inancları zəiflədi. Bəziləri az qala müsəlman olacaqdı. Ancaq kələkbaz olan müşrik Əbu Cəhl dərhal araya girdi və:

“Məhəmmədin izindən gedən bu ağılsızlaramı heyrət edirsiniz? Əgər Onun gətirdiyi həqiqət olsaydı biz Ona tabe olardıq. Xeyirli işlərdə Ondan daha əvvəl davranar, onları keçərdik! Zinnirənin doğrunu tapmaqda bizi keçəcəyinimi sandınız?” dedi.

Yanındakı avamlar bu boşboğazın sözlərinə inandılar. Düşünüb ibrət almadılar. Qəflət onları bürümüşdü. İman edəcəkləri yerdə “Bu da Məhəmmədin sehridir” dedilər. Cəhalətin zülmət qaranlığından ayrıla bilmədilər. Sehir deyib işi gecikdirdilər. Halbuki, uca Rəbbimiz bu hadisədən ibrət alınması üçün Qurani Kərimdə bu ayəni nazil etdi:

**“Kafir olanlar iman gətirənlər barəsində deyirlər: “Əgər** (Quran, islam dini) **yaxşı bir şey olsaydı,** (möminlər) **bu işdə bizdən qabağa düşə bilməzdilər** (biz onlardan daha əvvəl) **iman**

**gətirərdik. Onlar** (Quranla) **doğru yola gəlmədikləri üçün: “Bu, köhnə yalandır!” -deyəcəklər.”** (Əhqaf, 46/11.)

İslamın ilk günlərində kölələr və kasıblar müsəlman olduğu zaman Qureyşin varlı təbəqəsi iman və İslamın xeyir gətirmədiyini, bunun bu dinə ilk girənlərin səviyyələrindən bəlli olduğunu söyləyirdilər. Kitaba da dil uzadırdılar. Nazil olan bu ayə ilə inkar edənlərin əsassız fikirlərinə diqqət çəkilib tənqid edilmişdir. Bu hadisə müsəlmanların imanlarını, kafirlərin də küfürlərini artırmışdı.

Hz. Zinnirənin رضي الله عنها dinindəki səbatı, inancındakı bu səmimiyyəti və ixlası onu köləlikdən azad etdi. Hz. Əbu Bəkr رضي الله عنه onu alaraq Allar rizası üçün azad etdi.

Allah-Təala Zinnirənin رضي الله عنها iman mübarizəsindən bizlərə də pay nəsib etsin və şəfaətlərinə nail etsin.

Amin.

*Bir İslam Təbliğçisi*

# Ümmü Şərik

———— *radiyallahu anhə*

Ümmü Şərik ﵂ Məkkədə ev-ev gəzərək Qureyşli qadınlara İslamı başa salan bir insandır.

İmanın dadını almış, dini yaymaqda öz məsuliyyətini dərk edən bir möminə xanımdır. İslamın ucalması üçün həyəcan duyan, hətta özünü vəzifəli sayan, sanki təyin edilmiş bir təbliğatçıdır.

Allaha və Rəsuluna iman etməyin hüzur və xoşbəxtliyini, təslimiyyətinin mükafatını həyatda ikən görən bəxtiyar bir xanım səhabədir.

Məkkə müşriklərinin işgəncələrinə baxmayaraq imanından dönməyən, aclığa və susuzluğa qatlanan bir qəhrəman xanımdır.

O, Qureyşlidir. Məkkədə müsəlman olub. Əsl adı *"Quzeyyə binti Cabir İbn Hakim"* dir. *"Ümmü*

*Şərik”* künyəsiylə məşhur olmuşdur. Bu künyə ilə tanınan bir neçə xanım səhabənin də olduğu rəvayət edilir.

Ümmü Şərik ﵂ imanın dadını alan, inancının həyəcanını duyan və İslamı yaymaq üçün canla-başla məşğul olan bəxtiyar bir xanımdır. Qureyş qadınlarının evlərinə tez-tez ziyarət edər və onları İslama dəvət edərdi.

O, xanımlara İslamı başa salmağı özünə vəzifə bilirdi. Bu xidməti gizli-gizli yerinə yetirirdi. İnsanların şirk bataqlığından çıxıb haqq yola gəlməsinə özünün atəşdən qurtarması kimi çox sevinirdi. Bir insanın imanını qurtarmağın Allah qatında nə dərəcədə qiymətli və özü üçün necə böyük sərvət olduğunu bilirdi. Bunun üçün də mömin dostlarını çoxaltmağın xoşbəxtliyini, zövqünü və həyəcanını duyurdu. Bu səbəbdəndir ki, öz vəzifəsini böyük bir sevgi və şövq içərisində edərdi.

O, bir insanın qaranlıqdan çıxıb, cəhalətdən qurtularaq hidayətə qovuşmasını, bütləri buraxıb Allaha yönəlməsi və Quranla qovuşmasını, dünyanın ona verilməsindən daha xeyirli görürdü. İslam qardaşlığı ona görə ən böyük zənginlik idi.

Ümmü Şərik ﵂ İslamın gözəlliklərini Qureyşli xanımlar arasında yaya bilmək üçün dayanmadan çalışırdı. Müşriklərin əlinə keçməmək üçün səy

göstərirdi. Ancaq buna baxmayaraq azğın müşriklər onu təqib edirdilər.

Gün keçdikcə İslam sürətlə yayılırdı. Məkkədən kənarda da İslama yönələnlərin sayı çoxalmağa başlamışdı. Müşriklər bu gedişi dayandıra bilmək üçün yeni müsəlman olan kimsəsiz insanlara işgəncə etmək qərarına gəldilər. İslam adına görülən fəaliyyətlərin qarşısını almaq üçün əzab və cəfalarını artırdılar.

Ümmü Şərikə رضي الله عنها əvvəlcə hədə-qorxu gəldilər. Sonra həbs etdilər. Qızmar günəşin altında bir loğma çörək, bir udum su vermədən üç gün əziyyət verdilər.

Qureyşli müşriklərin işgəncələrinə dözə bilməyən müsəlmanlar Məkkəni tərk etmək məcburiyyətində qaldılar. İnanclarını yaşaya biləcəkləri yeni yurd-yuva axtardılar.

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ əvvəlcə Həbəşistana hicrət etmələrini buyurdu. Daha sonra Mədinəyə hicrət etməyə izin verildi. Bir müddət sonra Rəsulullah ﷺ ilə Hz. Əbu Bəkr Siddiq رضي الله عنه birlikdə Mədinəyə hicrət etdilər.

Ümmü Şərik də artıq Məkkə müşriklərindən xilas olmaq istəyirdi. Mədinəyə gedən heç kimi tapa bilmədi və bir yəhudi karvanına qoşuldu. Yolçuluq əsnasında imanda səbir və səbat etməyin

mükafatı olaraq Allah-Təalanın xüsusi ikramına məzhər oldu. Belə ki:

“Ümmü Şərikin içmək üçün ehtiyat suyu qurtarmışdı. Bunu fürsət bilən yəhudi ona dinindən dönməsə su verməyəcəyini söylədi. Xanımına da ona su verməməsi üçün göstəriş verdi.

Hava çox isti idi. Günəş insanı yandırırdı. Yolçuluq çox çətin keçirdi. Ümmü Şərik ﵂ çox halsız idi. Hərarətdən, susuzluqdan gücü, qüvvəti qalmamışdı. Çətinliklə gedir və danışırdı. Onun bu halı yəhudini ümidləndirmişdi. Öz istəyinə çatdığını, hətta onun dinindən dönməkdən başqa çarəsi qalmadığını zənn etmişdi.

Ümmü Şərik ﵂ isə dünya nemətləri üçün dinindən dönəcəyini əsla düşünmürdü. Əbədi həyatı fani həyatla dəyişməyi istəmirdi. Uca Rəbbinə olan inamı güclü idi. Onun hər şeyə qadir olduğuna və ona kömək edəcəyinə inamı sonsuz idi.

Belə ki, çarələrin tükəndiyi bir gecə yarısı Allah-Təalanınköməyi yetişdi. Rəbbinin xüsusi ikramına nail oldu.

O, hər kəsin yatdığı zaman sinəsinin üzərinə bir qədər suyun qoyulduğunu hiss etdi. Təqdim edilən bu sudan doyunca içdi. Üst-başına tökərək sərinlədi.

Sonra yol yoldaşlarını oyandırmaq üçün səsləndi. Onun səsinin gur çıxmasından su tapıb içdiyi aydın olmuşdu. Ona bir canlılıq gəlmişdi. Suyu ona kim verdi? deyib yəhudi öz ətrafındakılara qəzəbləndi. Xanımının verdiyini zənn edərək ona əsəbləşdi. Hirslənib qışqırdı və:

-“Suyu sən verdinmi?” dedi.

Ümmü Şərik ﵂ bunun ona Allah-Təalanın bir hədiyyəsi olduğunu və xanımının ona su vermədiyini söylədi.

Yəhudi inanmadı dərhal su qablarının yanına qaçdı. Onların da ağızlarının bağlı və açılmamış olduğunu gördüyü zaman heyrətlər içərisində çaşıb qaldı.

Necə ola bilər? Bu böyük bir işdir deməyə başladı. İnsanın edə bilmədiyi bir hadisə idi. Bunun möcüzə olduğunu yəhudi hardan bilə bilərdi.

Ümmü Şərikin səmimiyyəti xanım yoldaşına qarşı şəfqət və mərhəməti, onu qoruması və saf, təmiz bir imana sahib olması yəhudiyə çox təsir etmişdi. Onun sözləri yəhudinin qəlbində isti münasibət oyandırmışdı. Qəlbi İslamın nuruna qarşı açıldı və sənin Rəbbinə inandım dedi.

Ailəvi olaraq İslamın öz dinlərindən daha xeyirli olduğunu söyləyərək hamısı birlikdə kəlmeyişəhadət gətirib müsəlman oldular.

Ümmü Şərik رضي الله عنها imanda səbat etməyin mükafatını dərhal gördü. Həm inancından geri dönmədi, həm də bir ailənin İslama girməsinə vəsilə oldu.

Nümunəvi nəsil budur!

Bu necə imandır! Bu necə səbirdir! Bu necə dözümdür!

Və necə səadətdir ki, dünya və axirət xoşbəxtliyini imanda dözüm göstərərək qazanılır və həm özünü həm də yoldaşını atəşdən azad edir.

Və necə şərəfdir ki, belə bir mübarizə ruhu ilə könlünü doldurur! Allahım bizlərə də gözəl örnəklər ola bilməyi və xüsusi ikramları əldə etməyi nəsib et!..

❁

Ümmü Şərik رضي الله عنها hicrət yurdu Mədinədə vaxtaşırı İki Cahan Günəşi Hz. Peyğəmbərimizə ﷺ imkanı nisbətində ikram etməyi çox sevirdi. Özü yeməz, topladığı yeməkləri Hz. Peyğəmbərə ﷺ yedirməyi tərcih edirdi.

Bir dəfə də bir az yağ toplamışdı. Onu xidmətçisi ilə göndərdi. Onun bu səmimi qəlbdən etdiyi ikramı Hz. Peyğəmbərimizin xoşuna gəldi. Yağı boşaldıb tuluğu verdiyi zaman xidmətçiyə tuluğun ağzını bağlamadan bir yerə asmağını

istədi. Ağzı açıq bir yerə asılan tuluğun yenidən yağla dolduğu görüldü.

Ümmü Şərik bu halı Hz. Peyğəmbərimizə ﷺ bildirdi. Peyğəmbərimiz də bunun Rəbbimizin bir bərəkəti və hədiyyəsi olduğunu xatırlatdı. Yenə yağ tuluğunun ağzını bağlamamalarını bildirdi.

Sevincək oradan ayrılan Ümmü Şərik رضي الله عنها bu ikramın Rəsulullaha ﷺ qarşı bəslədiyi məhəbbətin, təslimiyyətin qarşılığı və nəğd mükafatı olaraq gördü.

Ümmü Şərik رضي الله عنها Hz. Peyğəmbərimizdən ﷺ hədis də rəvayət etmişdir. Bunlardan bir neçəsi Kutubus-Sittədə yer almışdır. Bir dənəsi belədir:

“Bir gün Hz. Peyğəmbərimiz ﷺ Ümmü Şərikin olduğu bir məclisdə dəccaldan danışdı və:

*“İnsanlar dəccaldan qaçıb dağlara sığınarlar”* buyurdu.

O igid İslam mücahidlərinin dəccal qarşısında dayana bilməyib qaçmaları Ümmü Şəriki kədərləndirmiş və təəccübləndirmişdi. O dayana bilməyib Hz. Peyğəmbərə belə sual etdi:

-“Ya Rəsulallah! O gün Ərəblər harada olacaq?” dedi:

Peyğəmbərimiz də:

-*"Onlar o gün çox az olacaq".* buyurdu.

Dəccalın qarşısında dayana bilməyib, onun şərrindən və fitnəsindən qaçıb canlarını qurtarmağa çalışacaqlarını buyurdu. (Riyazus-salihin Tərc. və Şərh. c.7. s, 460)

Ümmü Şərikin رضي الله عنها nə zaman vəfat etdiyi məlum deyil.

Allah-Təala ondan razı olsun.

Rəbbimiz bizlərə onun iman həyəcanından pay almağı və şəfaətinə nail olmağı nəsib etsin.

Amin.

*Rəsulullahın ﷺ Qayınanası*

# Ümmü Ruman

*radiyallahu anhə*

Ümmü Ruman ﵂ Rəsulullahın ﷺ qayınanası olma şərəfinə nail olan bəxtiyar bir xanım səhabədir.

Həzrət Aişə ﵂ anamızın sevimli anasıdır.

Hz. Əbu Bəkr Siddiqin ﵁ ailəsidir.

İslamın ilk günlərində müsəlman olan xoşbəxt xanımlardan biridir

O, Səratdan Məkkəyə gəlmişdir. Əsl adı Zeynəbdir. Atası Əmir İbni Uveymirdir.

Əvvəlcə Haris əl-Əsədi ilə nikahlandı. Bu izdivacdan Tufeyl adında bir oğlu oldu.

Haris, Hz. Əbu Bəkrin ﵁ yaxın dostu idi. O, Məkkədə vəfat etdikdən sonra Ümmü Ruman ﵂

Hz. Əbu Bəkr رضي الله عنه ilə evləndi. Əbdürrəhman ilə Hz. Aişə bu anadan dünyaya gəldi.

Ümmü Ruman İslamın ilk günlərində müsəlman oldu. Müşriklərin işgəncələrinə qarşı əri Hz. Əbu Bəkr رضي الله عنه ilə birlikdə dözdü. Bir-birlərinə mənəvi dəstək oldular. Allah yolunda qarşılaşdığı bütün çətinliklərə səbir etdi. Vəziyyətindən heç şikayət etmədi.

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ Hz. Əbu Bəkri رضي الله عنه özünə ən yaxın dost seçmişdi. İslamın yayılması xüsusunda onunla müşavirə aparırdı. Müsəlmanların dərdlərinə birlikdə çarə axtarardılar. Zülm və işgəncəyə məruz qalan əshabını qurtarmaq üçün səy göstərərdi.

Bu vəsilə ilə Hz. Əbu Bəkrin رضي الله عنه evinə tez-tez gələr onunla söhbət edərdi. Müsəlmanların vəziyyətləri ilə bağlı olan məsələləri birlikdə müzakirə edərdilər.

Ümmü Ruman رضي الله عنها Rəsulullahın ﷺ evini şərəfləndirməsindən çox məmnun olardı. Peyğəmbərimizə ﷺ səmimi qəlblə xidmət edərdi. Davranışlarıyla ədəb və hörmətdə qüsur etməməyə çalışırdı.

İslamın ilk illəri çətin və əzab-əziyyətli keçirdi. Hz. Xədicə رضي الله عنها anamızın vəfatından sonraki günlər

idi. Rəsulullaha ﷺ Hz. Aişə رضي الله عنها ilə evlənəcəyi vəhy edilmişdi. Ancaq bunu heç kimə deməmişdi.

Bir gün İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ bu bəxtiyar ailəni ziyarət etməyə getdi. Ümmü Rumana رضي الله عنها: “*Aişəni qoruyub, onunla yaxşı rəftar etmənizi tövsiyə edirəm”* buyurdu.

Ümmü Ruman رضي الله عنها ağıllı bir xanım idi. Rəsulullahın bu tövsiyəsində mütləq bir hikmətin olduğunu başa düşmüşdü. Ancaq nə olduğunu təxmin edə bilməmişdi. Bundan sonra qızı Aişəyə daha çox nəvaziş göstərməyə başladı. Ona daha çox qayğı göstərirdi. Təhsil və tərbiyəsi ilə yaxından maraqlanırdı. Onun savadlı bir xanım kimi yetişməsinə daha çox diqqət edirdi.

❁

Hz. Peyğəmbərimiz ﷺ bir dəfə yenə Hz. Əbu Bəkrin رضي الله عنه evinə ziyarətə gəldi. Hz. Aişəni رضي الله عنها ağlayarkən gördü.

Şəfqət və mərhəmət Peyğəmbərimiz ﷺ onun yanına yaxınlaşaraq nə üçün ağladığını soruşdu? O da: “Anasına görə ağladığını dedi. Daha sonra Peyğəmbərimiz ﷺ, Ümmü Rumana tərəf çevrildi və gileylənərək:

*“Mən sənə Aişəyə yaxşı davranmağını söyləmədimmi?” buyurdu.*

Ümmü Ruman رضي الله عنها xəcalət çəkdi və bundan sonra onunla yaxşı davranacağına dair söz verdi. İki Cahan Günəşi Peyğəmbərimizin ﷺ Aişəyə qarşı olan şəfqətinin hikmətini indi daha yaxşı başa düşməyə başladı.

Qızının gələcəkdə İslama böyük xidmət göstərəcəyinə inamı artdı. Ona artıq bir uşaq kimi deyil, gənc bir qız kimi davranırdı.

Hz. Xədicə anamızın vəfatından sonra Osman İbni Mazunun رضي الله عنه xanımı Hz. Havlə رضي الله عنها Peyğəmbərimizin yanına gələrək Hz. Aişə ilə evlənməsini təklif etdi.

Peyğəmbərimiz ﷺ razılıq verərək qəbul etdi onu elçiliyə göndərdi. Havlə رضي الله عنها bu bəxtiyar ailəyə gəldi və Aişənin رضي الله عنها anasına:

-“Ey Ümmü Ruman! Allahın sənə nə qədər xeyir və bərəkət verdiyini bilirsənmi?” dedi. O da maraqla:

-“O nədir elə ?”  dedi. Havlə həyəcanlı halda:

-“Rəsulullah məni sizin yanınıza elçi olaraq göndərdi” dedi.

Ümmü Ruman bu xəbərə çox sevindi. Ancaq o dəqiqə cavab vermədi. Bir azdan Əbu Bəkrin رضي الله عنه gələcəyini və  bu təklifi ona bildirməsini istədi.

Bir müddətdən sonra Əbu Bəkr رضي الله عنه gəldi. Havlə رضي الله عنها bu müjdəni ona da verdi.

Rəsulullaha ﷺ qayınata olmaq böyük şərəf idi. Əbu Bəkr bunun fərqində idi ancaq: "O qardaşının qızıdır, uyğun olarmı? dedi"

Havlə رضي الله عنها bu şübhəni aradan qaldırmaq üçün Rəsulullahın ﷺ yanınan gəldi. Vəziyyəti ona bildirdiyi zaman Peyğəmbərimiz:

-*"Get ona de ki! O mənim din qardaşımdır. Qızı mənə uyğundur. (Halaldır)"* de dedi .

Havlə رضي الله عنها bu cavabı gətirdiyi zaman Hz. Əbu Bəkr رضي الله عنه böyük bir məmnuniyyətlə təklifi qəbul etdi.

Rəsulullahla ﷺ daha yaxın yöndən də qohum olmağı özünə şərəf bildi. Qısa vaxt ərzində Hz. Peyğəmbər ﷺ ilə Hz. Aişə رضي الله عنها arasında nişan edildi.

❀

Bir ana-ata olaraq bundan sonra Hz. Əbu Bəkr və ailəsi Ümmü Ruman رضي الله عنها qızları Hz. Aişəyə رضي الله عنها qarşı daha diqqətlə davranmağa başladılar.

Onu Rəsulullaha ﷺ layiq xanım olması üçün tərbiyə etmək üçün cəhd göstərdilər. Söz və davranışlarına əhəmiyyət verdilər. Tərbiyəsinin və bacarığının ən gözəl şəkildə olmasına diqqət etdilər.

Bu vaxt Allah-Təala, Hz. Peyğəmbərimizlə ﷺ Hz. Əbu Bəkrə Mədinəyə hicrət etmək icazəsi verdi. Üç nəfərlik bir hicrət karvanı gizli şəkildə Məkkədən çıxdılar. Sevr mağarasında üç gün qaldıqdan sonra çətin bir yolçuluq keçirərək Mədinəyə çatdılar.

Ailə üzvləri Məkkədə qaldı. Bir neçə gün keçdikdən sonra qalan ailə üzvlərini gətirməyin yollarını axtardılar. Hz. Peyğəmbər ﷺ övladlığı olan Zeyd ibni Harisəni رضي الله عنه, Hz. Əbu Bəkr رضي الله عنه də oğlu Abdullahı bu iş üçün vəzifələndirdi.

Kiçik bir qafilə təşkil edib Məkkəyə tərəf yola çıxdılar. Heç kimin gözünə görünmədən yenidən Məkkəyə qayıtdılar. Vaxt itirmədən möminlərin anası Sevda binti Zema رضي الله عنها, Hz. Fatimə, Ümmü Rüman və Hz. Əlini götürərək Mədinəyə tərəf yola çıxdılar.

Bir ara Hz. Aişə və anasını daşıyan dəvə özündən çıxaraq qaçmağa başladı. Ümmü Rüman رضي الله عنها buna çox məyus oldu. Onun başına bir

fəlakət gəlsə Rəsulullaha ﷺ nə cavab verəcək? deyə öz-özünə:

“Aman qızım! Aman balam!” deyə çırpınmağa başladı.

Bir az sonra Allah-Təala dəvəni sakitləşdirib geri qaytardı. Onları sağ-salamat saxladı. Bir daha da belə bir sıxıntı yaşanmadı. Onların hamısı sağ-salamat Məkkəyə çatdı.

Ümmü Rüman رضي الله عنها Məkkədə olduğu kimi, Mədinədə də Hz. Əbu Bəkrin رضي الله عنه İslam yolundakı fəaliyyətlərində ən yaxın dəstəyi oldu. Rəsulullaha ﷺ nişanlı olan qızı Hz. Aişəyə gələcəkdə quracağı ailə yuvasının məsuliyyətlərini öyrətməyə çalışırdı. Ona qarşı necə davranmaq lazım olduğunu izah etdi.

Onun xidmətində olduqca dəqiq, təmiz, həssas və diqqətli olması lazım olduğunu, sözləri və davranışlarına da olduqca diqqət etməsini bildirdi.

İş bilən və gülərüzlü olmasını istədi. Rəsulullahın nəyi sevib, nəyi sevmədiyinə diqqət edib ona görə davranmasını tövsiyə etdi. Onu məmnun etmək üçün əlindən gələn bütün xidməti və bacarığı əsirgəməməyi, Onun razılığını qazanmaq üçün cəhd göstərməsini istədi. Onu sevindirməyi

həyatında əldə edəcəyi ən gözəl bir hədəf olaraq görməsini bildirdi. Allah-Təalanın möminlərə verdiyi cənnətə qovuşmağın yolunun da bu xidmətdən keçdiyini heç bir zaman unutmamasını qeyd etdi.

Bu həssaslıqları ona tez-tez xatırladaraq sevimli qızı Aişəni evliliyə hazırladı. Şəvval ayının içərisində toyları oldu. Beləliklə Ümmü Ruman رضي الله عنها Allahın Rəsuluna qayınana olma şərəfinə çatdı.

❁

O, Rəsulullaha ﷺ qayınana olma şərəfinə nail olduğu üçün daim Allaha şükür edir, özünü ən xoşbəxt və bəxtiyar bir ana hesab edirdi.

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ də ona çox hörmət edərdi. Bir övlad öz anasına necə davranırsa ona qarşı elə davranardı. Ona qarşı çox ədəb və hörmət bəsləyərdi. Sevgisini bu ifadələrlə dilə gətirirdi:

*“-Kimin Cənnət hurilərindən birinə baxmaqdan xoşu gəlirsə Ümmü Rumana baxsın”.* buyururdu. Onun cənnətlik olduğunu müjdələyərdi.

❁

Ümmü Ruman رضي الله عنها ibadətə düşkün olan bir xanım idi. Çoxlu namaz qılardı. Hz. Əbu Bəkr رضي الله عنه onun bir gün namaz qılarkən bir az yelləndiyini

görmüşdü. Onun bu hərəkətini uyğun görməyib, namazı qurtardıqdan sonra ona Rəsulullahın ﷺ bu hədisi dedi:

*-"Sizdən biriniz namaza durduğu zaman heç bir yerini tərpətməsin. Yəhudilər kimi də yellənməsin. Çünki dimdik durub sağa-sola tərpənməmək namazı tamamlayan şeylərdəndir".*

❁

Ümmü Ruman رضي الله عنها ömrünü Allah və Rəsuluna təslimiyyətlə keçirdi. Hicrətin altıncı ilində Mədineyi-Münəvvərədə vəfat etdi.

Onun dəfn işlərilə şəxsən Rəsulullah ﷺ məşğul oldu və qəbrinə də özü endirdi. Onun haqqında istiğfar edib belə dedi:

*"Allahım! Sənin və Rəsulunun yolunda Ümmü Rumanın nə qədər fədəkarlıq etdiyi Sənə gizli deyildir".* buyurdu.

Allah-Təala hər birimizə Ümmü Ruman رضي الله عنها anamızın dinimizə qarşı olan həssaslığından pay almağı və şəfaətinə nail olmağı nəsib etsin.

Amin.

*Rəsulullahın ﷺ Xalası*

# ƏRVA BİNTİ ƏBDÜLMÜTTƏLİB

——— *radiyallahu anhə*

Ərva binti Əbdülmüttəlib رضي الله عنها Rəsulullahın ﷺ xalasıdır.

Oğlunun vasitəsilə İslamla şərəflənən bir xanım səhabədir.

Övladına davamlı olaraq nəsihət edən, Rəsulullahın yanından ayrılmamasını tövsiyə edən, ona dəstək olmasını istəyən fəzilətli bir anadır!

O, Haşimoğullarına mənsubdur. Anası *Fatimə binti Əmr b. Aiz*dir. Atası isə *Əbdülmüttəlib*dir. Sevgili Peyğəmbərimizin atası Abdullah ilə ana-ata bir bacı qardaşdır.

İslamın ilk günlərini görən və qohumluq cəhdi ilə Hz. Peyğəmbərimizə ﷺ dəstək olan bir xanımdır.

O, Cahiliyyə dövründə *Umeyr İbni Vəhb* ilə evlənmişdi. Ondan *Tuleyb* adında bir oğlu var idi.

Tuleyb İslamın ilk günlərində Ərkamın evində İslamla şərəfləndi. Anası Ərva Xatunun da müsəlman olması üçün dualar etdi.

Bir gün anası ilə birlikdə qarşılıqlı olaraq şirin-şirin söhbət etdi. Aralarında belə dialoq oldu:

-"Bax anacan! Mən müsəlman oldum. Məhəmməd aleyhissalama tabe oldum. Ona təslim oldum". dedi.

Ərva Xatun da:

-"Heç şübhəsiz ki, dayının oğlu, sənin köməyinə və dəstəyinə hər kəsdən daha layiqdir. Vallah onu kişilərə qarşı qorumağa gücümüz çatsaydı, hər təcavüzdən qoruyardıq." dedi.

Tuleyb anasının bu yumşaq davranışının dəstək mənasına gəldiyni başa düşdü. Ona qarşı daha yaxşı davranmağa, sözlərinə və hərəkətlərinə daha çox fikir verməyə çalışdı. Anasının bir an əvvəl küfür bataqlığından qurtulmasını istəyirdi. Bunun üçün zaman axtarır, fürsət gözləyirdi.

İslam dini gün keçdikcə Məkkədə yayılır və müsəlmanlar çoxalırdı. Məkkənin sayılıb seçilən gəncləri Musab, Muaz, Mikdad, Bilal, Zübeyr və Sad İbni Əbi Vakkas ﷺ hamısı müsəlman olmuşdu.

Xalqın arasında cəsarəti və qəhrəmanlığı ilə tanınan, məğlub edilməz və qorxusuz igid olan Hz. Həmzə də İslamın nuruna qovuşmuşdu. Müsəlmanlar yeni-yeni adlarla güc qazanmağa başlamışdı.

Tuleyb ﵁ bir an əvvəl anasının da cəhalət qaranlıqlarından və küfür bataqlığından azad olmasını arzulayırdı. Bu səbəblə onun üçün çoxlu dualar edirdi.

Dayısının İslama girməsini fürsət bilərək anasına gözəl və yumuşaq bir üslub ilə yalvarmağa başladı. Ona İslamın gözəlliklərini anlatdı. Könlünü İslama hazırladı. Və belə dedi:

-“Anacan! Sənin müsəlman olmağına və Rəsulullaha təslim olub Ona tabe olmağa mane olan nədir? Bax, qardaşın Həmzə də müsəlman oldu”. dedi.

-Ərva Xatun oğlunun bu mərhəmətli və gözəl davranışları qarşısında çox dayana bilmədi. Könlü ona isnişdi, ancaq təslim də ola bilmədi.

“Oğlum! Qardaşımın etdiklərinə baxıram. Sonra onlardan biri olacağam”. deyərək qadın saflığı içərisində bir cavab verdi.

Tuleyb ﵁ anasının İslam üçün hazır hala gəldiyini ancaq öz vaxtını gözlədiyini hiss etdi. Onu

məyus edəcək heç bir hərəkət etmədən öz arzusunu təkrar etdi və:

Elə isə anacan! Sən Rəsulullahın yanına gedib kəlmeyi-şəhadət gətirənə qədər mən də Allaha yalvarmağa davam edəcəyəm”. deyərək öz üzərinə düşən xidmətə yəni dua etməyə davam etdi.

Oğlunun bu nazlı yalvarışına, səmimi davranışlarına və qəlbinin dərinliklərindən gələn sevgisinə dözə bilməyən Ərva Xatun bu dərin şəfqət və ədəb qarşısında təslim oldu və dərhal kəlmeyi-şəhadət gətirdi.

*“Şəhadət edirəm ki, Allahdan başqa ilah yoxdur. Və yenə şəhadət edirəm ki, Məhəmməd Allahın rəsuludur”.* dedi.

Ərva Xatun İslamla şərəfləndikdən sonra qardaşı oğlu Hz. Məhəmmədə ﷺ daha çox köməklik etdi. Oğlunun Rəsulullahın ﷺ yanından ayrılmaması üçün davamlı olaraq təşviq etdi. İslam dininin yayılmasında dəstək olmasını istədi.

❀

Bir gün Tuleyb, Əbu Cəhlin Hz. Peyğəmbərimizə təhqir etdiyini və ona qarşı söyüşlər söydüyünü eşitdi. Onun bu kobud hərəkətinə dözə bilmədi. Əlinə aldığı bir dəvə sümüyü ilə Əbu Cəhlin yanına

gəldi və onun başını yardı. Əbu Cəhlin adamları Tuleybi tutub bağladılar. Dayısı Əbu Ləhəb araya girərək onun bağlarını açdı və bacısı oğlunu xilas etdi. Sonra bacısı Ərva Xatunun yanına gəldi və:

-“Tuleyb Məhəmməd üçün özünü təhlükəyə atır. Onun etdiklərini görmürsənmi?” deyərək söyləndi.

Ərva Xatun olduqca sakit bir şəkildə müşrik qardaşına belə cavab verdi.

-“Onun günlərinin ən xeyirlisi, həyatının ən şərəfli dövrü dayısının oğlu Məhəmmədi qoruduğu və ona kömək etdiyi günlərdir. O, Allahdan haqq və həqiqəti gətirmişdir”. deyərək oğlunu dəstəklədiyini bildirdi.

Əbu Ləhəb o günə qədər bacısının müsəlman olduğunu bilmirdi. Qəzəbli bir şəkildə ona:

-“Sənin, atan Abdulmuttalibin dinini tərk edib Məhəmmədə tabe olmağın çox təəccüblüdür! dedi.

Ərva Xatun olduqca sakit və səbirli idi. Ona mərhəmət edərək sevgi dolu sözlərlə nəsihət edib bu təklifi etdi:

-“Qalx! Sən də qardaşının oğlunun yanında ol! Onunla birlikdə dayan! Ona kömək et! Ona dəstək ol! Onu müdafiə et!

Əgər o qalib gəlib, onun dini üstün olarsa sən yaxşı adamlardan olarsan. Əks təqdirdə qardaşın oğluna görə günahkar və qüsurlu olarsan”. dedi.

Bu tövsiyələrilə qardaşı oğlu Məhəmmədə dəstək olmasını istədi. Ancaq Əbu Ləhəb bu təklifi qəbul etmədi. Heç cürə daxilindəki kin və qəzəbi ata bilmədi. Oradan ayrılıb gedərkən:

-“Onun gətirdiyi və sonradan ortaya çıxartdığı dinə görə bütün Ərəb topluluqlarına qarşı mübarizə aparmağa bizim gücümüz çatar”. dedi.

Ərva Xatun da fikrindən dönmədiyini, imanından üz çevirmədiyini və bu yolda ölənə qədər canı və malıyla çalışacağını, oğlu Tuleybi getdiyi yolda dəstəklədiyini ifadə edən bu misraları söylədi:

*Tuleyb dayısının oğluna kömək edəcək,*
*Ondan canını və malını əsirgəməyəcək.*

❁

Ərva Xatun həm Cahiliyyə zamanında, həm də İslamla şərəfləndikdən sonra şərəf və fəzilətilə tanınan, fikirlərinə etimad edilən və öz qövmünün sayılıb-seçilən xanımlarından biri idi.

O, şair ruhlu olduğu üçün sözləri və şeirlərilə Hz. Peyğəmbərimizi ﷺ və müsəlmanları müdafiə etməyə çalışmışdı. Atası Əbdülmüttəlibin və Hz.

Peyğəmbərin ﷺ vəfatına görə söylədiyi mərsiyələr qaynaq əsərlərdə zikir edilməkdədir.

O, Hz. Peyğəmbərin ﷺ əbədiyyət evinə yolçuluğundan sonra sevgisini və üzüntüsünü bu misralarla dilə gətirmişdir.

*Ey Allahın Rəsulu! Sən bizim ümidimiz idin,*
*Sən bizə yaxşılıq edib, bizə zülm etməzdin,*
*Sanki qəlbimin üzərində Məhəmmədin adı var.*
*Peyğəmbərdən sonra qəbilələr bir yerə topla na bilmədilər.*

Necə də xoşbəxtdir fəzilətli analar!..

Necə böyük səadət sahibidir övladlarını İslam yolunda tərbiyə edib, Rəsulullahın ﷺ izindən aparan analar!..

Müjdələr olsun İslamın xidmət qəhrəmanlarını yetişdirən analara!.

Vay o anaların halına ki, onlar dünyanın qulu, nəfsinin oyuncağı və şeytanın tələsi olmuşlar!

Allah-Təala hər birimizin qəlbini İslamı yaşamaq və dəstək yolunda Ərva binti Əbdulmuttalibin رضي الله عنها eşq və həyəcanı ilə doldurmağı və şəfaətlərinə nail olmağı nəsib etsin.

Amin.

*Uhudda Unudulmayan Bir Səhabə*

# Sümeyra Binti Qeys

——— *radiyallahu anhə*

Sümeyra binti Qeys ﵂ Rəsulullaha ﷺ olan sevgisini Uhudda göstərdiyi nümunəvi davranışlarıyla isbat edən və bu hərəkətləriylə unudulmayan bir xanım səhabədir.

“O sağ olduqdan sonra bütün müsibətlər mənə heç gələr” deyə bilən imanlı bir xanımdır.

Uhud günü Allah Rəsulunu dünya gözüylə görə bilmək üçün çırpınan və tezliklə Ona sağ olaraq qovuşa bilmək həsrəti ilə yanan sədaqətli bir xanımdır.

Əri, qardaşı və oğlunun şəhadət xəbərinə əhəmiyyət vermədən Rəsulullahı ﷺ görmək üçün çırpınan bir aşiqdir.

O, Dinaroğulları qəbiləsinə mənsubdur. Onun haqqında məlumat az olsa da, onun bircə hərəkəti belə bizlərə nə qədər dərin bir iman və həyəcan verir. Ürəyimizdəki məhəbbət üfüqünü ucaldır və özümüzə belə suallar yönəltmək fürsətini verir.

Bir mömində Rəsulullaha olan sevgi necə olmalıdır? Könüllərə yerləşən Rəsulullah sevgisi necə göstərilməlidir? Peyğəmbər sevgisinin ürəkdə çoxalması nəyin işarəsi sayılmalıdır?

Sümeyra Xatunun Uhud günü göstərdiyi nümunəvi davranış, ürəklərdə olan bu suallara birbir cavab verir.

Onun bir xanım olaraq ortaya qoyduğu səbir, mətanət və məhəbbət qiyamətə qədər gələcək möminlərə bir məşəl olacaqdır.

Öz şəhidlərinin dərdlərini çəkmədən israrla Rəsulullahı axtarıb-araması Peyğəmbər sevgisinə dair ən gözəl nümunə olaraq zikr ediləcəkdir.

Onun ibrət dərsi verən bu gözəl davranışları belə nəql edilir.

Sümeyra Xatun Uhud döyüşündə müsəlmanların məğlubiyyət xəbərini eşidəndə çox pis olmuşdu. Atası, əri, qardaşı və iki oğlu da döyüşə qatılmışdı. Görəsən, vəziyyətləri necə idi?

Rəsulullah ﷺ haqqında da bir sıra şayələr eşitmişdi.

Peyğəmbərimiz ﷺ haqqında dəqiq məlumat ala bilmək üçün xanım səhabələrdən ibarət olan bir qrup ilə Uhuda getdi.

Sümeyra Xatun döyüş meydanına girəndə atasının, ərinin, qardaşının və oğlunun şəhid olduğunu öyrəndi.

Şəhidlər arasında bir az irəliləyincə onların ox və qılınc zərbələriylə parça-parça olmuş cəsədlərini gördü.

Əshabı-kiram Sümeyra Xatuna baş sağlığı verir, səbir diləyirdilər. Bu şəkildə onu təsəlli etməyə çalışırdılar.

O isə mətanətlə, ağır bir şəkildə israrla Rəsulullahı ﷺ soruşurdu. Onun sağlığı, səhhəti haqqında məlumat almaq istəyirdi. Ona səbir diləyən səhabələrə:

-“Rəsulullah nə edir? Necədir?” deyə suallar verirdi.

Əshabı-kiram onun dərdinə şərik olmaq istəyir, o isə tezliklə Rəsulullahı görmək istəyirdi.

Sümeyra Xatunun bu dərin məhəbbətinə heyranlıqla şahid olan əshabı-kiram onun suallarına belə cavab verirdilər:

-“Allaha həmd olsun O yaxşıdır. Sənin istədiyin kimidir” deyərək ona təsəlli verirdilər.

Bütün bu səylər onun qəlbindəki iztirabı heç cürə yox edə bilmirdi. Şəxsən özü Peyğəmbərimizi ﷺ dünya gözü ilə görmək istəyirdi. Gözləri döyüş meydanında onu axtarırdı.

Sümeyra Xatun ona təskinlik verməyə çalışan əshabı-kirama yalvararaq:

-“Onun olduğu yeri mənə göstərin. Onu mənə göstərin, ona bir baxım” dedi.

Səhabələr İki Cahan Günəşi Peyğəmbərimizin olduğu tərəfi işarə edən kimi Sümeyra Xatun dərhal o tərəfə doğru qaçmağa başladı.

Rəsulullahın ﷺ sağ olduğunu gördükdə Rəbbinə şükür etdi və:

-“Anam-atam sənə fəda olsun, Ya Rəsulallah! Sən sağ olduqdan sonra bütün müsibətlər mənə heç gəlir” deyərək ürəyindəki dərin məhəbbət və həsrəti dilə gətirdi.

“Sən sağ olduqdan sonra” sözüylə dünyada hər şeyin, hər dərdin, hər kədərin lazımsız olduğunu bu nümunəvi davranışıyla  göstərdi.

Bax onlar Rəsulullahı belə sevirdilər. Əshabı ucaldan, əlçatmaz edən sirr də bu deyilmi?

Necə dərin məhəbbət!... Necə güclü iman!... Necə həsrət!... Necə məhəbbət!... Necə səbir!... Necə təslimiyyət!... Nə gözəl nümunə!...

Allahım bizə də o sevgi və məhəbbəti lütf et! İmanımızı təmiz, davranışlarımızın gözəl olmasını nəsib eylə!

Allah və Rəsulullah sevgisini ürəyimizdə həmişə öndə tuta bilməyi ehsan et!

Hamımıza əshabı-kiramın bu cür gözəl davranışlarından nümunə götürməyi nəsib eyləsin!

Sümeyra Xatunun رضي الله عنها şəfaətinə nail ola bilməyi nəsib et!

Amin.

*Şikayətini Allaha Çatdıran*

# Havlə Binti Saləbə

——— *radiyallahu anhə*

Havlə binti Saləbə ﵂ dini həyatını səmimiyyətlə yaşayan, inancından əsla dönməyən bir xanım səhabədir.

Əri ilə arasında baş verən zihar (Bir kimsənin öz xanımına "sən mənə anam kimisən" deyərək, onu özünə haram qılması) mövzusunda şikayətini Allah və Rəsuluna çatdıran və duası qəbul olunan bir xanımdır!

İman mövzusunda göstərdiyi həssaslıq ilə tanınan dini qaydalara görə yaşamağa çalışan bir iman qəhrəmanı idi!

Haqqında Allah-Təalanın Mücadələ surəsinin ilk dört ayəsini nazil etdiyi bir bəxtiyar insandır!

O Mədinəli olub Həzrəc qəbiləsinə mənsubdur. Hicrətdən sonra Rəsulullaha ﷺ beyət etdi. Atası *Saləbə İbni Əsrəm*dir.

O, əmisinin oğlu *Əvs İbni Samit əl-Ənsari* ilə evləndi. *Rəbi* adında bir övladı dünyaya gəldi.

Əvs İbni Samit رضي الله عنه tanınmış səhabə Ubadə İbni Samitin رضي الله عنه qardaşıdır. Bədir və Uhuddan başqa bir çox qəzvədə (Peyğəmbərin ﷺ şəxsən özünün iştirak etdiyi döyüş) iştirak etmişdir.

Havlə binti Saləbə رضي الله عنها dini mövzularda çox həssas idi. İnancını həyata keçirmək üçün çalışırdı. Yaşlı vaxtlarında əri ilə arasında bir hadisə yaşanmışdı. Onlar haqqında Allah və Rəsulunun hökm verməsini gözlədi. Heç kimə öz vəziyyətini danışmadı. Ərinə qarşı sərt rəftar etməyə başladı.

O, öz şikayətini Allah və Rəsuluna bildirdi. Öz problemlərinin həllini ancaq Allah və Rəsulunun tapmasını istədi. Onun çətinliklərə qarşı qətiyyəti imanının həssaslığına ən gözəl nümunə idi. Başına gələn əhvalatı özü belə nəql etmişdir:

Əvs İbni Samit xeyli yaşlanmışdı. Elə bir vəziyyətdə idi ki, nə dediyini və etdiyini bilmirdi. Bir gün əsəbləşmiş bir halda qəzəblə mənə:

-“Sən mənə anamın kürəyi kimi ol!” dedi. Bundan sonra evdən çıxıb getdi.

Bir müddətdən sonra peşman olaraq evə geri qayıtdı. Mənimlə bərabər olmaq istədi. Mən:

-“Xeyr! Sən çox böyük danışdın. Sonu necə olacaq bilmirəm”. dedim. Sonra Əvsə:

-“Sən Rəsulullahın yanına get və etdiyin iş haqqında ondan soruş!” dedim. O da:

-“Mən bunu Rəsulullahdan soruşmağa utanıram. Get bunu Rəsulullaha sən danış”. dedi.

Bu ifadələr Ərəblərin arasında boşanmağı tələb edən bir söz olaraq qəbul edilirdi.

Cahiliyyə dövrünün bu boşanma şəklinin İslamda da keçərli ola biləcəyini ehtimal edən Havlə binti Saləbə رضي الله عنها onlar haqqında Allah və Rəsulu bir hökm verənə qədər bir yerdə ola bilməyəcəklərini ərinə söylədi.

Bundan sonra Rəsulullahın ﷺ hüzuruna getdi. Onun evinə çatdı. Rəsulullahı Hz. Aişənin evində tapdı. İcazə alaraq hüzuruna girdi və baş verənləri açıq ifadələrlə belə anlatdı:

-“Ya Rəsulallah! Bildiyiniz kimi ərim Əvs, uşaqlarımın atası və əmimin oğludur. Həddindən artıq qocaldığına görə özündən asılı olmayaraq ağır bir kəlimə işlətdi. “Sən mənə anamın kürəyi kimisən”. dedi. Boşanaq demədi ancaq belə söylədi deyərək vəziyyəti izah etdi.

Rəsulullahın ﷺ yanından ayrılmadı. Davamlı dua halında olaraq:

-“Ya Rəbb! Halımı sən bilirsən. Bizə bir qurtuluş yolu lütf et” deyə yalvarmağa başladı.

Hz. Aişə رضي الله عنها Havlənin رضي الله عنها bu halına çox kədərləndi. Onun problemini bölüşmək üçün birlikdə göz yaşı töküb dua etdilər.

Hüzn içərisində olduqları zaman birdən Rəsulullahın ﷺ halının dəyişdiyinə şahid oldular. İki Cahan Günəşi Peyğəmbərimizin ﷺ üzündə vəhy gələrkən görülən əlamətlər görünməyə başladı. Hz. Aişə رضي الله عنها bu halı gördüyü zaman:

-“Ey Havlə! Allah hər şeydən xəbərdardır. Şübhəsiz ki, vəhy gəlir. O da hər halda sənin haqqındadır”. deyərək ona təsəlli verməyə çalışdı.

Havlə رضي الله عنها dua etməyə davam edir və: “Ey Allahım xeyirli olanı lütf et. Çünki mən Peyğəmbərindən ancaq xeyir istədim”. deyə göz yaşı tökürdü.

Bir müddət sonra İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ özünə gəldi. Vəhy halı keçmişdi. Ətrafına nur saçan təbəssümü ilə gülümsəməyə başladı və:

*-“Ey Havlə! Allah sənin və onun haqqında ayə endirdi”.* buyurdu.

Nazil olan ayeyi-kəriməni oxudu. Qəlblərdəki hüzn, sevincə çevrildi. Sıxıntılı və kədərli hava yox oldu. Şən və sevincli bir mühit yarandı. Enən ayələrin mənası belədir:

(Ya Peyğəmbər!) **Əri barəsində səninlə mübahisə edən və Allaha şikayət edən qadının sözünü Allah eşitdi. Allah sizin danışığınızı eşidir. Həqiqətən, Allah** (hər şeyi) **eşidəndir,** (hər şeyi) **görəndir!**

**"Sizdən öz qadınları ilə zihar edən kimsələrin zövcələri** (əslində) **onların anaları deyillər. Onların anaları ancaq özlərini doğan qadınlardır. Onlar, əlbəttə, pis və yalan söz danışırlar. Şübhəsiz ki, Allah əfv edəndir, bağışlayandır.**

**Qadınları ilə zihar** (qanuni nikahlarını özlərinə haram) **edib, sonra sözlərindən dönənlər onlarla yaxınlıq etməzdən əvvəl** (kəffarə vermək üçün) **bir kölə azad etməlidirlər. Bu sizə** (zihar barəsində) **verilən öyüddür. Allah nə etdiklərinizdən xəbərdardır!**

**Kim** (azad etməyə bir kölə) **tapmasa, qadını ilə yaxınlıq etməzdən əvvəl iki ay sərasər oruc tutmalı, buna da gücü çatmasa, altmış yoxsulu yedirdib doydurmalıdır. Bu sizin Allah və Onun Peyğəmbərinə iman gətirməniz üçündür. Bun-**

**lar Allahın hədləridir** (onları aşmaq olmaz). **Kafirləri şiddətli bir əzab gözləyir!**

**Allah və Onun Peyğəmbəri əleyhinə çıxanlar, özlərindən əvvəlkilər nə cür rüsvay olmuşlarsa, o cür rüsvay olacaqlar. Biz artıq** (Muhəmməd əleyhissəlamın haqlı olmasını sübut edən) **açıq-aşkar ayələr nazil etdik. Kafirləri alçaldıcı bir əzab gözləyir!**

**Allah onların hamısını dirildəcəyi gün etdikləri əməlləri onlara xəbər verəcəkdir. Allah** (onların əməllərini bir-bir) **sayıb yazmış, onlar isə** (etdiklərini) **unutmuşlar. Allah hər bir şeyə şahiddir!"** (Mücadilə, 58/1-6)

Allah-Təala nazil etdiyi bu ayələrlə o köhnə adət-ənənələrin səhv bir fikirdən ibarət olduğunu və belə sözlərlə qadının öz ərinin anası olmayacağını bildirdi.

Ancaq, belə bir söz söyləyənə də kasıbların leyhinə olaraq bir cəza qoydu. Qoyulan cəzaları üç qrupa ayırdı. Hər kəsin imkanı və gücünün çatdığı qədərilə üç cəzadan birini yerinə yetirməsini dini bir vəzifə saydı. Günaha düşən qulun ancaq bu şəkildə bağışlanacağını açıqladı.

Hz. Peyğəmbərimiz ﷺ ilahi bir mesajla dolu olan bu ayələri oxuduqdan sonra Havləyə رضي الله عنها xitab edərək:

-*"Ona de ki bir kölə azad etsin"* buyurdu.

Havlə:

-"Hansı köləni Ya Rəsulallah! Allaha and olsun ki onun azad edəcəyi heç bir şeyi yoxdur". dedi.

Hz. Peyğəmbərimiz ﷺ:

-*"O zaman ardı-ardına iki ay oruc tutsun".* buyurdu.

Havlə:

-"Vallah o çox yaşlıdır. Buna da gücü çatmaz". dedi.

Hz. Peyğəmbərimiz:

-*"O zaman altmış yoxsulu doyursun".* buyurdu.

Havlə:

-"Ya Rəsulallah! Onda bu imkan da yoxdur". dedi".

Bundan sonra Rəhmət Peyğəmbəri:

-*"Biz sənə bir ağacın verdiyi qədər, bir səbət xurma verəcəyik".* buyurdu.

Havlə binti Saləbə də:

-“Mən də o qədər xurma əlavə edəcəyəm və paylayacağam”. dedi.

Peyğəmbərimiz Havlənin bu sözündən razı qaldı və:

*-“Get ona ver paylasın. Əmi oğlunun, ərinin yaxşılığı üçün çalış”.* buyurdu.

Necə həssaslıq!... Necə məhəbbət!... Necə iman eşqi!... Necə səmimi davranış!... Allah və Rəsulunun qatında dəyərini, qiymətini bilmək necə də gözəl nümunədir.

Necə gözəldir həyatı dini ölçülərə riayət edərək davam etdirmək, ər-arvad arasında da olsa, haram etməmək üçün səy göstərmək, məhəbbət və nəzakət içərisində nümunəvi bir həyat yaşamaq. Allahım bizlərə də belə nəzakət və səadət dolu həyat nəsib et!

Havlə binti Saləbəyə رضي الله عنها bütün səhabələr hörmət edirdi.

Haqqında nazil olan ayələr onun Allah qatındakı dəyərini ifadə edir.

Bu səbəblə ona qarşı xidmət və hörmətdə qüsur etmirdilər. Hz. Ömərin رضي الله عنه dövründə baş verən bu hadisə buna aydın bir nümunədir.

Hz. Ömər رضي الله عنه xəlifəliyi dövründə əshabı-kiramdan Əbdülqeys qəbiləsinin rəisi Carud İbni Mualla ilə birlikdə yolda gedərkən Havlə binti Saləbəyə رضي الله عنها rast gəlir. O, artıq yaşlanmışdı. Ona salam verdi. Havlə رضي الله عنها salamı aldı və Hz. Ömərə belə nəsihət verdi:

“Biz səni əvvəllər “balaca Ömər” bilirdik. Sonra böyüdün “qəhrəman Ömər” oldun. İndi də sənə “Möminlərin əmiri Ömər” deyirik. Allahdan qorx və insanların işləriylə maraqlan. Çünki Allahın əzabından qorxan kimsəyə uzaqlar yaxın olar. Ölümdən qorxan, fürsəti qaçırmaqdan da qorxar” dedi.

Bu sözlərdən təsirlənən Hz. Ömərin رضي الله عنه gözlərindən yaş axmağa başladı. Dostu Carud bu vəziyyətə pis oldu. Necə ola bilər ki, bir qadın xəlifəyə bu sözləri xitab edə bilər, dedi?

O qadının xəlifəni kədərləndirməsinə və yolda gözlətməsinə könlü razı olmadı. Böyük xəlifənin qarşısında belə rahat hərəkət etməsinə səbir edə bilmədi. Hirsli halda tanımadığı xanıma Havlə binti Saləbəyə رضي الله عنها dönərək:

-“Ey qadın! Möminlərin Əmirini narahat etdin, onu yolda gözlətdin” dedi.

Hz. Ömər رضي الله عنه isə dostuna o xanımın nəsihətlərindən məmnun olduğunu bildirdi. Hətta onun danışmasını istəyərək:

-“Burax onu, istədiyini söyləsin! Sən bu qadının kim olduğunu bilirsən?” dedi.

Carud da:

“Xeyr, tanımıram” dedi. Bundan sonra Hz. Ömər ﷺ dostu Caruda o xanımı belə tanıtdı:

-“O, şikayətini Allah-Təalanın ərşi-əladan eşidib dəyər verdiyi Havlədir. Vallah, məni gecəyə qədər burda saxlamaq istəsə, namazdan başqa heç nə üçün onu qoyub getmərəm. Namazımı qılıb, gəlib yenə onu dinləyərdim” dedi.

Onun Allah qatındakı dəyərini bu şəkildə bildirdi. Özünün də Allaha təslim olmağındakı gözəl halını, təvazösünü bu sözləriylə göstərmiş oldu.

Allahın yeddi qat göylərin dərinliklərindən səsini eşitdiyi bu xanıma Ömərin daha çox qulaq verməsi lazımdır.

Mömin qardaşına sahib çıxmaq necə uca iman həssaslığı!... Necə sədaqət!... Necə dəyər vemək!... Necə nümunəvi qardaşlıqdır!...

Allah-Təala hamımıza Havlə binti Saləbə رضي الله عنها kimi iman həssaslığına sahib ola biməyi, şikayətimizi Allaha çatdıra bilməyi və şəfaətinə nail ola bilməyi nəsib etsin.

Amin.

*Həzrət Həmzənin رضي الله عنه Xanımı*

# Havlə Binti Qeys

——————— *radiyallahu anhə*

Havlə binti Qeys رضي الله عنها Rəsulullahın ﷺ onun evinə tez-tez gəldiyi bir xanım səhabədir.

Rəsulullahın ﷺ bir ana ocağı kimi yanında rahat olduğu, ikramlarını aldığı, yeməklərini yediyi bəxtiyar bir xanımdır.

Peyğəmbərimizin ﷺ sevimli əmisi seyyidüs-şühəda (şəhidlərin sultanı) Hz. Həmzənin رضي الله عنه hicrətdən sonraki xanımıdır.

O, Mədinəlidir. Nəccar oğullarındandır və Hazrəc qəbiləsinə mənsubdur.

Əsad İbni Zürarə رضي الله عنه onun dayısıdır. Atası, Qeys İbni Kahddır. Anası, Furaya binti Zürarədir. Havlə رضي الله عنها Samir ləqəbiylə də tanınır.

Peyğəmbərimizin ﷺ sevimli əmisi Hz. Həmzə رضي الله عنه Mədinəyə hicrət edən zaman Havlə binti Qeys رضي الله عنها ilə evləndi. Sevgi və şəfqət yuvası olan xanəsində bol-bol ikramlar verirdi.

Havlə رضي الله عنها xidmət əhli, iş bilən və ikramı sevən bir xanım idi. Qonağı əksik olmazdı. Evi qonaqsız qalmazdı. Çox comərd idi.

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ sevimli əmisinin evinə tez-tez baş çəkərdi. Havlənin رضي الله عنها şəfqəti, mərhəməti, xidməti Peyğəmbərimizi cəlb edərdi. Onun evini bir ana ocağı kimi bilirdi. Bu səbəbdən öz evi kimi rahat hərəkət edər, çəkinmədən yeyib-içərdi.

Bir gün sevimli əmisi ilə birlikdə gəlmişdi. Havlə رضي الله عنها qısa zamanda evdə olanlardan yemək hazırladı. Un, süd və yağı qarışdıraraq bişirdi və onların qabağına qoydu.

İki Cahan Günəşi Peyğəmbərimiz əlini uzatdığında çox qaynar olduğunu başa düşdü və əlini geri çəkdi. Səhv başa düşməsinlər deyə təbəssüm edərək belə dedi:

*“Havlə! Nə istiyə səbir edə bilirik, nə də soyuğa”* buyurdu.

Peyğəmbərimiz ﷺ nə çox isti, nə də çox soyuq yeməz və içməzdi.

Peyğəmbərimizin ﷺ bu davranışı insanın sağlamlığı üçün bəlkə də ən lazımlı xüsus idi. Çünki sağlamlıq hər şeydən üstündür.

❁

Yenə bir gün Peyğəmbərimiz ﷺ Havlənin رضي الله عنها evinə ziyarətə gəlmişdi. Sevimli əmisi də evində idi. Birlikdə söhbət edib, yemək yedilər.

Yeyib qurtardıqdan sonra Rəsulullah ﷺ ətrafındakılara belə bir sual verərək onlara bəzi şeylər öyrətmək istədi və:

-*"Siz səhvlərinizi siləcək, günahlarınıza kəffarə olacaq şeyi xəbər verimmi"* buyurdu.

Onlar da:

-"Bəli, Ya Rəsulallah! Buyurun, xəbər verin" dedilər.

Rəsulullah ﷺ:

-*"Çətinliklərə baxmayaraq dəstəmazı tam almaq, məscidlərə addımları çoxaltmaq və namazdan sonra namazı gözləməkdir".* buyurdu.

❁

İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ həyatın hər səhifəsində, harda olursa olsun İslamı təbliğ etmək üçün səy göstərərdi. Əlinə keçən hər fürsəti

dəyərləndirməyə çalışardı. Vəzifə və mövqeyi, zaman və məkanları İslamı öyrətmək və yaymaq üçün vəsilə bilirdi.

Bir gün yenə Havlənin رضي الله عنها evində sevimli əmisi Hz. Həmzə رضي الله عنه ilə dünya malı haqqında söhbət edirdilər. Qarşılıqlı etdikləri bu şirin söhbət zamanı Peyğəmbərimiz buyurmuşdu:

*“Dünya malı şirindir və cəzbedicidir. Kim ondan özü üçün halal olanı alarsa, onu haqqıyla əldə edərsə, ona bərəkət verilər. Nə qədər Allahın və Rəsulunun malını istifadə edən kəslər vardır ki, onlar qiyamət günü atəşdədir”.*

**İmam Nəvəvi** bu hədisi-şərifi Buxaridən seçərək Riyazussalihin kitabına daxil etmişdir.

Qul haqqına diqqət çəkilən, tərcümə və şərhi də edilən bu hədisin tam mətni belədir:

“Hz. Həmzənin xanımı Havlə binti Samir əl-Ənsariyə رضي الله عنها belə dedi:

Rəsulullahın ﷺ belə buyurduğunu eşitdim:

“Şübhəsiz ki, haqsız olaraq Allahın malından istifadə edən kəslər qiyamət günündə cəhənnəmə layiqdirlər”. (Riyazus-salihin Tərcümə və şərhi c.2, s. 173)

Allahın malı müsəlmanların hamısına aid olan dövlət malıdır. Bunları haqsız yerə və qanuni olmayan yollarla sərf etmək ən böyük günahlardan sayılır. Cəzası isə qiyamət günü cəhənnəmə girməkdir.

Rəbbimiz hamımızı bu cür günahlara düşməkdən qorusun!

Qul haqqı barəsində o imanlı insanların göstərdiyi həssaslıqdan bizə də nəsib etsin!

Rəbbimiz hamımızı Havlə binti Kaysın ﵂ şəfaətinə nail eyləsin!

Amin.

*Kölələri Tərəfindən Şəhid Edilən*

# ÜMMÜ VARAQA

———— *radiyallahu anhə*

Ümmü Varaqa رضي الله عنها Allah yolunda cihad etmək arzusu ilə yaşayan və şəhidlik eşqilə yanan bir xanım səhabədir!

Bədir döyüşündə iştirak etmək üçün təkid etdiyinə görə Rəsulullahın ﷺ *“Allah sənə şəhidlik nəsib edəcəkdir”.* deyə müjdə verdiyi bəxtiyar bir insandır.

Hz. Peyğəmbərlə ﷺ hər dəfə qarşılaşdığı zaman hər yerdə ona “şəhid” deyilən xoşbəxt bir xanımdır.

Həsrətini çəkdiyi şəhidlik məqamına kölələri tərəfindən qovuşan bir xanım səhabədir.

Onunla əlaqəli ətraflı məlumat olmamasına baxmayaraq, haqqında nəql edilən bir neçə hadisə belə bizlər üçün ibrətli dərslər verməkdədir.

O cəsur və bilikli xanım idi. Dini mövzularda geniş bilgisi var idi. İslamı ən gözəl şəkildə yaşamaq üçün cəhd göstərirdi.

Ailə üzvlərinə və ətrafındakı insanlara dini məsələlərdə köməklik göstərirdi. Bildiklərini yaşayaraq ətrafındakı insanlara örnək olurdu.

O, Allah yolunda cihad etməyin fəzilətini bildiyi üçün şəhid olmağı çox istəyirdi.

Ramazan ayının bir günü idi. Bədir döyüşünə hazırlıqlar başlamışdı. Ümmü Varaqa رضي الله عنها böyük bir həyəcanla Hz. Peyğəmbərimizə ﷺ müraciət etdi və belə rica etdi:

“Ey Allahın Rəsulu! Mənə icazə verin sizinlə birlikdə döyüşdə iştirak edim! Yaralılarınızı müayinə edib, xəstələrə baxım! Bəlkə də Allah yolunda şəhid olmaq mənə qismət oldu”. dedi.

Hz. Peyğəmbərimiz ﷺ heç bir xanımın Bədir döyüşündə iştirak etməsinə icazə verməmişdi. Buna görə də Ümmü Varaqaya da icazə vermədi. Ancaq onun bu həsrətini, təkidli arzusunu, şəhidlik intizarını sakitləşdirib onu sevindirmək üçün bu müjdəni verdi.

*“Ey Ümmü Varaqa! Allah sənə şəhidlik nəsib edəcəkdir”.* buyurdu.

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ onun bu səmimi və belə davranışından razı qalmışdı. Bu səbəblə bundan sonra hər dəfə Ümmü Varaqanı رضي الله عنها gördüyü zaman ona “şəhid” deyə xitab edərdi.

Hz. Peyğəmbərimiz ﷺ vaxtaşırı Ümmü Varaqanı رضي الله عنها evində ziyarət edərdi. Hal-əhvalını soruşardı.

Əshabi-kiram da belə fürsətləri qənimət bilərdi. Belə zamanları ən yaxşı şəkildə dəyərləndirməyə çalışırdılar. Peyğəmbərimizə ikram etmək və Onu məmnun edə bilmək üçün sanki bir-biri ilə yarışaraq əllərindən gələn xidməti etmək istəyirdilər. Bu zaman zehinlərini məşğul edən sualları da soruşardılar.

Bir gün, ənsardan olan bir xanım vəfat etmişdi. Ümmü Varaqa رضي الله عنها dini mövzularla çox maraqlanırdı. Öz-özünə:

“Görəsən öldükdən sonra bir-birimizi görəcəyik?” deyə zehnindən keçirdi. Bu suala cavab axtardı.

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz ﷺ evinə gəldiyi zaman bu mövzunu açdı və:

"Ya Rəsulallah! Öldüyümüz zaman bir-birimizi görəcəyik?" deyə soruşdu. Hz. Peyğəmbər ﷺ belə cavab verdi:

*"Can ağaca qonmuş bir quş kimidir. Belə ki, qiyamət günü gəldiyi zaman hər can cəsədinə girər".* buyurdu.

❀

Ümmü Varaqa رضي الله عنها sevgi dolu bir könül sahibi idi. Şəfqət və mərhəmətliydi. Kölələrə qarşı belə sərt münasibət bəsləməzdi. Hər kəsə qarşı yumşaq təbiətli idi. Səmimiyyətini və məhəbbətini qarşısındakı adama hiss etdirirdi. Ancaq insanoğlu nankordur. Nemətə qarşı az şükr edirdi. Hər şeyin dərhal olmasını istəyirdi. Səbirsiz idi.Yaxşı niyyəti pis yolda istifadə edirdi. Allah və Rəsulunun sevgisindən uzaq olan könüllərdə bu cür zəifliklər çox olurdu.

Ümmü Varqanın رضي الله عنها bir kişi, iki qadın kölısi var idi. Hisslərinə aldanıb, şeytana uydular. Tezliklə azadlıqlarına qovuşmaq düşüncəsilə öz aralarında razılaşıb Ümmü Varaqaya رضي الله عنها sui-qəsd hazırladılar. Fürsət tapıb evdə tək olduğu zaman otağa zorla girdilər. Xaincəsinə bir hərəkət edib, mərhəmət etmədən öldürüb qaçdılar.

Bu hadisə Hz. Ömərin رضي الله عنه dövründə baş verdi. Bütün müsəlmanları dərindən kədərləndirdi. Xəli-

fə bu xəbəri eşidən kimi: “Rəsulullah doğru söylədi”. dedi.

Ümmü Varaqaya şəhid deyə xitab etməsinin hikmətini xatırlatdı və ona müjdələnən şəhidliyin baş verdiyini anladı. Cinayətkarların həbs edilməsi üçün əmr verdi.

Cinayətkarlar qısa zaman içərisində həbs edilib, məsuliyyətə cəlb edildikdən və etdikləri əməli etiraf etdikdən sonra cinayətlərini edam ediləərək ödədilər.

Mədinədə asılaraq edam edilən ilk cinayətkar bu iki kölə oldu.

Hz. Ömər رضي الله عنه vaxtaşırı yoldaşlarına: “Gəlin gedib bu şəhidlərin qəbrini ziyarət edək” deyərdi.

Ümmü Varaqa رضي الله عنها səhabələr arasında sayılan və sevilən bir xanım idi. Allah ondan razı olsun. Rəbbimiz şəfaətlərinə nail etsin.

Amin.

*Tək Başına Hicrət Edən Qureyşli Xanım*

# ÜMMÜ GÜLSÜM BİNTİ UKBƏ

——— *radiyallahu anhə*

Ümmü Gülsüm binti Ukbə ﵂ Qureyşlilərin içərisində ev-eşiyini tərk edib Mədinəyə tək başına hicrət edən bir xanım səhabədir.

Allah və Rəsuluna hicrət etmək üçün evindən qaçan bir mühacir xanımdır.

Rəsulullaha ﷺ Məkkədə beyət edən bəxtiyar xanımlardandır.

Mədineyi-Münəvvərəyə hicrət etdiyi zaman; "Məni müşriklərə geri qaytarmayın" deyə Hz. Peyğəmbərimizə sığınan, imanlı və igid bir xanımdır.

Hz. Osmanın ﵁ ana bir bacısıdır.

O, Məkkəli və Qureyş qəbiləsinə mənsubdur.

Atası Peyğəmbərimizi boğmaq istəyən qatı müşrik və Peyğəmbərimizin düşməni *Ukbə bin Əbi Muayt*dır. Anası, *Ərva binti Kureyz*dir.

Ərva xatun, İslamın ilk illərində müsəlman olma səadətinə nail olan bir xanımdır. Hz. Peyğəmbərin ﷺ xalasının qızı və Hz. Osmanın ﵁ da anası olur. Ərva xatunun anası *Beyza xanım* Peyğəmbərimizin xalasıdır.

Ümmü Gülsüm Məkkədə İslamla şərəfləndi. Rəsulullaha ﷺ beyət etdi. Digər müsəlmanlar kimi o da işgəncələrə məruz qaldı.

Başda atası olmaqla müşriklərin bütün əzab və əziyyətlərindən öz payını almışdı. Dindən dönməsi üçün çoxlu təyziqlərə məruz qaldı. Ancaq o bunların heç birinə əhəmiyyət vermədi. İnancından əsla dönmədi. İmanından da üz döndərmədi.

Yeni müsəlman olanlar üçün günlər çətin və min bir əzabla keçir, illər işgəncələrə məruz qalmaqla axıb gedirdi. Sevimli Peyğəmbərimiz Mədinəyə hicrət etmişdi. Onun ayrılığından sonra Məkkə sanki boşalmışdı. Səhabilərin hamısı evlərini tərk edib getmişdi. Məhz onlar inanclarını yaşamaq üçün hər şeylərini fəda edib hicrət etmişdilər.

Ümmü Gülsüm ﵂ doğulub böyüdüyü şəhərdə ailəsinin yanında qalmışdı. Atası icazə verməyən

mişdi. Ancaq bir müsəlman olaraq özünü tək və tənha hiss edirdi. Müsəlman qardaşlarından və Rəsulullahdan ayrı qalmağın iztirabıyla həyatına davam edirdi. Sanki öz yurdunda qürbət həyatı yaşayırdı. Bunun üçün o da hicrət etmək istəyirdi. Bu ayrılığın bitməsi üçün Rəbbimizə dua edir və hicrət üçün fürsət axtarırdı.

Ümmü Gülsüm رضي الله عنها yeddi il Rəsulullaha qovuşmaq həsrətilə yaşadı. Müsəlman qardaşlarından ayrı qalmağın əzabını yeddi il qəlbinə dəfn etdi.

Nəhayət Rəbbimiz ona bir fürsət verdi. Hər gün getdiyi yerə gedən kimi bir planla evdən qaçdı.

❀

O hicrət macərasını belə nəql edir:

“Məkkədən ən son çıxış yeri olan Tənim tərəflərində bizə aid bir bağ var idi. Ailə üzvlərimizdən bəziləri də orada otururdu. Buraya tez-tez gedib, üç-dörd gün qalıb Məkkəyə qayıdırdım.

Ailəm mənim oraya getməyimə mane olmurdu. Buraya gediş-gəlişi artıraraq ailə üzvlərimi buna adət etdirdim.

Artıq Məkkədə qalmaq istəmirdim. Öz-özümə hicrət etməyə qərar verdim. Yolda qarşılaşacağım çətinliklərə razı oldum.

Bir gün yenə bağçaya gedirmiş kimi Məkkədən çıxdım.

Yolun ən son nöqtəsində şəhərin çıxışına çatdım.

Orada bir adamla qarşılaşdım. Məndən:

-"Sən hara getmək istəyirsən?" deyə soruşdu. Mən də:

-"Sən kimsən?" dedim.

-"Huza qəbiləsindən" deyə cavab verdi.

Bu qəbilə Rəsulullah ﷺ ilə müqavilə bağlayaraq sədaqət göstərmişdi. Ona:

-"Mən Qureyşilərdənəm Mədinəyə getmək istəyirəm" dedim. O da:

-"Biz Huzalılar gedilən yolu çox yaxşı bilirik". dedi.

Mənə yol göstərəcəyini dedi və dəvəsini gətirib mənim qabağımda çökdürdü. Mən də dəvəyə mindim. Huzalı dəvənin ipindən tutub önə keçdi və Mədinəyə tərəf yola çıxdı.

Ümmü Gülsüm binti Ukbə رضي الله عنها Allah və Rəsulunun yolunda anasından, atasından və məmləkətindən ayrılırdı. Bunun üçün də heç kədərlənmirdi. Hz. Peyğəmbərimizə ﷺ və müsəlman qardaşlarına qovuşmağı böyük səadət hesab edirdi.

Uzun və yorucu bir yolçuluqdan sonra Mədinə qarşıdan görünməyə başladı.

Ümmü Gülsümün ﵂ könlü sevinc içərisində idi. Məkkədə keçən sıxıntılı günlər geridə qalmışdı.

Allahın Rəsuluna qovuşmağın həyəcanı qəlbini bürümüş və içi-içinə sığmaz olmuşdu.

Sağ-salamat Mədinəyə çatmağın şükrü ilə Rəbbimizə həmd edirdi. Yol rəhbəri Huzalıya dua edirdi.

Allah o yoldaşı xeyirlə mükafatlandırsın! Bir dəfə olsa belə ən xırda bir problem yaşadacaq hərəkət etmədi. Huza qəbiləsi ən gözəl qəbilədir! deyirdi.

Ümmü Gülsüm ﵂ Mədinəyə girdiyi zaman möminlərin anası Ümmü Sələmənin ﵂ qonağı oldu.

O əsnada İki Cahan Günəşi Hz. Peyğəmbərimiz evdə yox idi. Anamız ona yemək ikram etdi və hal-əhvalını soruşdu. Onun sevincini bölüşmək üçün birlikdə oturub söhbət etdi. Ancaq o narahat görünürdü.

Ümmü Sələmə ﵂ anamız bu fədakar və imanlı qardaşını rahatlaşdırmaq və könlündəki sıxıntı və narahatçılığı aradan qaldırmaq üçün ona:

-“Ey Ümmü Gülsüm! Sən Allah və Rəsulu üçün hicrət etdin elə deyilmi?” dedi  O da:

-“Bəli!” dedi. Ancaq Ümmü Gülsüm رضي الله عنها rahat deyildi. Düşüncəli idi.. Ürəyində saxladığı bir dərdi, həyəcanı vardı. Bunu açıqlamaq üçün bir fürsət axtarırdı.

Ümmü Sələmə رضي الله عنها anamızın onunla yaxın rəftarından cəsarət alaraq zehnini məşğul edən, ürəyini sıxan qorxu və naratçılığı belə açıqladı:

-“Ey Ümmü Sələmə! Hudeybiyə müqaviləsinə görə Məkkədən qaçıb Mədinəyə gələnlər Məkkəlilərə geri qaytarılırdı. Müsəlman olaraq Rəsulullaha sığınan Əbu Cəndəl رضي الله عنه ilə Əbu Basir رضي الله عنه də geri qaytarılmışdır. Peyğəmbərimizin məni də geri qaytarmasından qorxuram.

Ey Ümmü Sələmə! Qadınların vəziyyəti kişilər kimi deyil.

Məkkədən ayrılmağının üstündən səkkiz gün keçdi. İndi onlar məni axtaracaqlar. Tapa bilməyəndə də buralara qədər gələcəklər” deyərək vəziyyətini dilə gətirdi.

Ümmü Gülsüm binti Ukbə رضي الله عنها bu narahatçılıq içərisində həyəcanlı bir şəkildə gözləyərkən İki Cahan Günəşi Peyğəmbərimiz onun evinə gəldi.

Ümmü Sələmə ﵂ anamız vəziyyəti Peyğəmbərimizə izah etdi. Hz. Peyğəmbərimiz bu fədakar səhabəsinə *"Xoş gəldin"* dedi.

Ümmü Gülsüm ﵂ Rəsulullaha həyəcanlı şəkildə Mədinəyə gəliş macərasını danışdı. Daxilindəki narahatçılığı da dilə gətirərək sözlərini belə bitirdi:

-"Ya Rəsulullah! Mən dinim uğrunda hicrət edərək sizin yanınıza gəldim.

Məni qoruyun.

Müşriklərə geri verməyin.

Onlara geri versəniz mənə işgəncə edəcəklər.

Dinimdən döndərməyə çalışacaqlar.

Axı, mən qadınam.

Bilirsiniz ki, qadınların vəziyyəti zəiflərin vəziyyətinə bənzəyir" deyərək dərdini izah etdi.

İki Cahan Günəşi Peyğəmbərimiz diqqətlə Ümmü Gülsümü ﵂ dinlədi. Onu sevindirmək və qorxusunu aradan qaldırmaq üçün belə cavab verdi:

*"Uca Allah mütləq qadınlar haqqındakı əhdi pozar, hökümsüz qoyar"* buyurdu.

Peyğəmbərimiz bu imanlı, fədakar səhabəsini bu sözləriylə rahatlatdı.

Rəbbimiz də Peyğəmbərinin istəyini həyata keçirdi və xanımların müşriklərə geri verilməməsi ilə bağlı ayə nazil etdi.

Yeni nazil olan bu ilahi müjdə “imtahan edilən qadın” mənasını verən Mumtəhinə surəsinin onuncu ayəsi idi. Məalən:

**“Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir** (onları yoxlayıb bilmək sizə lazımdır). **Əgər bunların** (bu qadınların həqiqi) **mömin olduqlarını bilsəniz, artıq onları kafirlərin yanına qaytarmayın. Nə bunlar** (bu qadınlar) **onlara** (kafirlərə), **nə də onlar bunlara halaldır. Onların** (kafirlərin həmin qadınlara) **xərclədiklərini** (mehri) **özlərinə qaytarıb verin. Bunların** (bu qadınların) **mehrlərini özlərinə verdiyiniz təqdirdə onlarla evlənməyinizdən sizə heç bir günah gəlməz. Kafir qadınları öz kəbininiz altında saxlamayın.** (Həmin qadınlara) **verdiyiniz mehri** (onların ərə getdiyi kafirlərdən) **istəyin.** (Kafirlər də islamı qəbul edib möminlərlə evlənən qadınlara) **sərf etdikləri mehri** (sizdən) **istəsinlər. Allahın hökmü budur. O sizin aranızda** (belə) **hökm edər. Allah** (hər

şeyi) **biləndir, hikmət sahibidir!”** (əl-Mumtəhinə (İmtahana çəkilən qadın), 60/10)

İki Cahan Günəşi Hz. Peyğəmbərimiz vəhy tamamlandığı zaman bu müjdəli xəbəri Ümmü Gülsümə رضي الله عنها bildirdi.

Artıq bundan sonra müşriklərin arasından qaçıb gələn imanlı xanımlar Məkkəyə geri qaytarılmayacaqdı.

Hz. Peyğəmbərimiz صلى الله عليه وسلم ilahi əmrə uyğun olaraq onu və daha sonrakı xanımları araşdırdı və:

*“Allaha and olsun ki siz, Allah və Rəsulunun sevgisi və İslami vəzifələri yerinə yetirmək üçün hicrət etmisiniz. Yoxsa siz nə ər, nə də mal üçün hicrət etməmisiz.”* buyurdu.

Ümmü Gülsüm رضي الله عنها rahat bir şəkildə nəfəs aldı.

Sevincindən könlü uçur və Uca Rəbbimizə həmd edirdi.

Sevimli Peyğəmbərimizə sevinc göz yaşları ilə cavab verirdi.

Amma dünya imtahan dünyası idi. Sıxıntılar qurtarmırdı. Bütün bu baş verən işlər və hadisələrin arasında atası Ukbə İbni Əbi Muayt qızının Mədinədə olduğunu öyrəndi.

Oğlanları Vəlid və Umarəni bacılarını alıb gətirmək üçün Sevimli Peyğəmbərimizin yanına göndərdi.

Mədinəyə gəldikləri zaman Peyğəmbərimizi tapdılar. Hudeybiyə müqaviləsinə şərtlərinə görə özlərindən razı halda İki Cahan Günəşi Hz. Peyğəmbərimizə:

"Aramızda olan razılaşmaya əsasən bacımızı bizə təslim et!" dedilər.

Hz. Peyğəmbərimiz ﷺ onlara: *"Allah-Təala xanımlar haqqında o şərtin hökmünü qaldırdı".* buyurdu.

Ümmü Gülsümü رضي الله عنها onlara təslim etmədi. Vəlid və Umarə əlləri boş olaraq Məkkəyə geri qayıtdılar.

❁

Ümmü Gülsüm binti Ukbə رضي الله عنها hələ evlənməmişdi. Mədinədə qalması dəqiqləşdiyi zaman səhabilərin sayılıb-seçilənlərindən olan Zübeyr İbn Avvam, Zeyd İbni Harisə və Əbdürrahman İbni Avf رضي الله عنهم ona evlilik təklifi etdilər.

Ümmü Gülsüm رضي الله عنها bu vəziyyəti qardaşı Hz. Osman رضي الله عنه ilə məsləhətləşti. O da Hz. Peyğəmbərimizdən ﷺ soruşmağı tövsiyə etdi.

Bu təklif Hz. Peyğəmbərimizə deyildiyi zaman Ümmü Gülsümün ﵂ Zeyd İbni Harisə ilə evlənməsini münasib gördü. Qısa zaman içərisində iki fədakar səhabənin isti və mehriban ailəsi quruldu.

Hz. Zeyd ilə Ümmü Gülsüm ﵂ xoşbəxt bir həyat keçirdilər. Ancaq onların xoşbəxtlikləri çox davam etmədi. Çünki əri Zeyd ﵁ Mutə döyüşündə şəhid olmuşdu. Bu evlilikdən *Zeyd* adında bir oğulları və *Ruqiyyə* adında bir qızları dünyaya gəldi.

Ümmü Gülsüm ﵂ qəza və qədərə inanan imanlı bir xanım idi. Allahdan gələn hər şeyə razı idi. Ərinin şəhid olmasını səbir və mətanətlə qarşıladı.

İddət müddətini gözlədikdən sonra Zübeyr İbni Avvam ﵁ ilə evləndi. Ondan da *Zeynəb* adında bir qızı oldu.

Həyat sürprizlərlə dolu idi. Xoşbəxt bir ailə həyatı davam edərkən birdən aralarında anlaşılmazlıq baş verdi. O isti ailə həyatı dözülməz hala gəldi. Uzun çəkmədi. Qısa bir müddətdən sonra boşanmaq məcburiyyətində qaldılar.

Həyat davam edirdi. İnsan tək yaşaya bilməzdi. Ümmü Gülsüm də bunu dərk edirdi. Əb-

dürrəhman İbni Avf ﷺ tərəfindən edilən təklifdən sonra onunla evləndi. Bu evlilikdən də *İbrahim* və *Hamid* adında iki oğlu dünyaya gəldi.

Ümmü Gülsüm binti Ukbə ﵂ Hz. Peyğəmbərin ﷺ söhbətlərindən istifadə edən bilikli və imanlı bir xanım idi. Hz. Peyğəmbərimizdən ﷺ ona yaxın hədis rəvayət etdiyi nəql edilmişdir. Bunlardan biri budur:

Ümmü Gülsüm binti Ukbə İbni Əbi Muayt ﵂ Rəsulullahı ﷺ belə buyurarkən dinlədim, dedi:

*“İnsanların arasını düzəltmək üçün xeyirli xəbər gətirən (və ya xeyirli bir söz söyləyən) kimsə yalançı sayılmaz”.* (Buxari, sülh, 2)

Müslimin rəvayətində də:

“Ümmü Gülsüm dedi ki, Peyğəmbərin ﷺ yalanlardan sadəcə üçünə icazə verdiyini eşitdim. Bunlar da:

1. Döyüşdə (düşməni aldatmaq üçün)

2. İki nəfərin arasını düzəltmək üçün,

3. Ərinin həyat yoldaşına, həyat yoldaşının da ərinə (ailənin nizamını qorumaq məqsədilə) danışdığı yalandır.” (Riyazus-salihin Tərc. və Şərh. c.2, s.247)

Ümmü Gülsüm binti Ukbə رضي الله عنها Əbdürrəhman İbni Avfın رضي الله عنه vəfatından sonra, ömrünün sonunu Amr İbn As رضي الله عنه ilə nikahlı olaraq keçirdi. Onun nikahı altında olduğu zaman axirət dünyasına köç etdi.

Allah ondan razı olsun.

Allah-Təaladan onun fədakarlığından, cəhdindən və iman həyəcanından pay almağı və şəfaətlərinə nail olmağı arzu edirik.

Amin.

*Səbir və Mətanət Sahibi*

## HİND BİNTİ ƏMR

———— *radiyallahu anhə*

Hind binti Amr ﵂ Peyğəmbərimizə ﷺ hicrətdən sonra beyət edən xanımlardandır.

Allah və Rəsuluna imanı bir sevgi ilə təslim olmuş, malını, canını fəda etməkdən çəkinməmişdir.

Uhudda göstərdiyi mətanəti və məhəbbəti dillərdə dastan olan bəxtiyar, igid bir xanımdır.

O, Mədinənin iki böyük qəbiləsindən biri olan Hazrəc qəbiləsinin Bəni Sələmə qoluna mənsubdur.

Uhud döyüşündən müsəlmanlardan ilk şəhid olan Abdullah İbni Haramın ﵁ bacısıdır.

Çox hədis rəvayət etməsiylə məşhur olmuş Cabir İbni Abdullahın ﵁ da xalasıdır. Anasının adı Hind binti Qeys İbni Kureymdir.

O, Bəni Sələmə qəbiləsinin rəisi, comərdliyi və bütlərə həddindən artıq inanması ilə tanınan Amr İbni Cəmuh ilə evlənir. Bu evlilikdən dörd oğlu olur.

Hind binti Amr ﵂ Uhud günü, müsəlman yaralıların müalicəsində köməklik göstərmək üçün döyüş meydanına qədər gedən doqquz və ya on dörd xanımdan biri olaraq tanınır.

O, ağıllı, zəkalı, özünə güvənən, çətinliklər qarşısında səbir və mətanətini itirməyən cəsur bir xanımdır.

O, Uhud döyüşündən sonra şəhidlərinin Mədinəyə aparılması zamanı sərgilədiyi davranışlarıyla, qəlbinin Allah və Rəsulunun sevgisi ilə dolu olduğunu göstərən bir səhabədir.

O, Uhud günü şəhid olan əri, qardaşı və oğullarını döyüş meydanında axtararkən onların cəsədləri önündə için-için ağladı. Fəryad etmədi. Dərdini ürəyinə saldı. “Rəsulullah sağ olduqdan sonra heç bir fəlakətin əhəmiyyəti yoxdur.” deyərək böyük bir səbir və mətanət göstərərək özünə təskinlik verdi. Ancaq bu sözləri ilə sakitləşə bildi.

O, şəhidlərin fani bədənlərini dəvə üzərinə yükləyib Mədinəyə aparmaq istədi. Ancaq buna müvəffəq olmadı. Çünki dəvə Mədinə tərəfə getmirdi. Bu necə bir duyğu idi? Niyə Uhud tərəfə gedir, Mədinəyə yönəlincə dayanırdı? İlahi bir sirrin olduğunu başa düşdü və dəvəni məcbur etmədi.

Hindin başına gələn bu ibrətverici hadisə belə nəql edilir:

❀

Hind binti Amr رضي الله عنها Uhud döyüşündən sonra əri Amr İbni Cəmuh, oğlu Hallad və qardaşı Abdullahın şəhid bədənlərini bir dəvənin üstünə yükləyərək Mədinəyə aparmağa hazırlaşırdı. Hz. Aişə رضي الله عنها anamız da bir xəbər almaq üçün Uhuda gedən yol üzərinə çıxmışdı. Harrə tərəfdə Hind ilə qarşılaşanda ondan xəbər almaq istədi və:

-“Geridə nə xəbər var?” dedi.

Hind رضي الله عنها zəkalı bir xanım idi. Hz. Aişə رضي الله عنها anamızın həyəcanını aradan qaldırmaq üçün: “Rəsulullah sağ olduqdan sonra heç bir fəlakətin əhəmiyyəti yoxdur” dedi.

Hind bu sözləriylə həm könlündəki Rəsulullah sevgisini açıqladı, həm də Hz. Aişə anamızın naratlığını aradan qaldırdı.

Hz. Aişə ﵂ anamızın gözləri dəvənin üstündəki cəsədlərə zillənmişdir. Onları göstərərək:

-“Bunlar kimdir?” dedi.

Hind ﵂ hüznlü bir səslə:

-“Qardaşım Abdullah, oğlum Hallad və ərim Amrdır” dedi.

Hz. Aişə ﵂:

-“Onları hara aparırsan?” dedi.

Hind ﵂:

-“Mədinədə Bəqi qəbristanlığında dəfn etmək istəyirəm” dedi.

Hind ﵂ dəvəsini sürdü, ancaq dəvə yerindən tərpənmədi. Bir az məcbur etdikdən sonra da dəvə yerə çökdü. Hz. Aişə ﵂ ona:

-“Görəsən dəvənin yükü ağırdı deyə yerimir?” deyə soruşdu.

Hind ﵂ də:

-“Niyə getmədiyini bilmirəm. Həmişə iki dəvənin yükünü daşıyardı. Bu gün onda fərqli bir hal müşahidə edirəm” dedi.

Bir müddət çalışdıqdan sonra dəvə qalxdı. Ancaq Mədinəyə tərəf yön aldığı zaman yenə

çökdü. Yenə qaldırdılar. Uhuda tərəf çevrildiyi zaman qaçmağa başladı.

Hind رضي الله عنها dəvənin bu fərqli vəziyyətini Hz. Peyğəmbərimizin ﷺ yanına gəlib danışdı. İki Cahan Günəşi Peyğəmbərimiz ﷺ ona:

*“Dəvə vəzifələndirilmişdir. Amr sənə bir şey demişdi? Onun hər hansı bir vəsiyyəti var idi?”* deyə soruşdu.

Hind də:

Topal olduğu üçün Bədir döyüşündə iştirak etməyən ərinin Uhuda gedərkən belə dua etdiyini söylədi:

“Allahım mənə şəhidlik nəsib et! Məni şəhidlikdən məhrum olaraq zillət içərisində ailəmin yanına geri qaytarma!” dediyini söylədi.

Bundan sonra Hz. Peyğəmbərimiz ﷺ Hində:

*“Bax, ona görə də dəvə yerimir, ey Ənsar! Sizdən hansınızsa Allaha and içmişsə, andına sadiq qalsın.*

*Ey Hind! Ərin Amr sadiq olanlardandır. O, şəhid edildiyi andan etibarən mələklər qanadlarıyla onun üzərinə kölgə saldılar. Haraya dəfn etsinlər deyə fikirləşdilər”.*

Şəhidlər dəfn edildikdən sonra Peyğəmbərimiz ﷺ səhabəsi Hindi təsəlli etmək niyyəti ilə:

*“Ey Hind! Cənnətdə ərin Amr İbni Cəmruh, oğlun Hallad və qardaşın Abdullah hamısı bir yerə toplaşıb dost olacaqlar”* buyurdu.

Hind رضي الله عنها bu gözəl xəbəri eşitdiyi zaman çox sevindi. O dəqiqə Peyğəmbərimizə ﷺ: “Ya Rəsulallah, Allaha dua et ki, məni də onlarla bərabər etsin” dedi.

Rəbbim hər birimizi şəfaətlərinə nail etsin!

Amin.

## İÇİNDƏKİLƏR

Ön Söz ........ 7
Həzrət Sümeyyə (r.anhə) ........ 11
Həzrət Hammə Binti Cahş (r.anhə) ........ 19
Hind Binti Utbə (r.anhə) ........ 28
Həvlə Binti Hakim (r.anhə) ........ 52
Hakim Binti Haris (r.anhə) ........ 62
Ümmü Mabəd (r.anhə) ........ 72
Həzrət Zinnirə (r.anhə) ........ 84
Ümmü Şərik (r.anhə) ........ 92
Ümmü Ruman (r.anhə) ........ 100
Ərva Binti Əbdülmüttəlib (r.anhə) ........ 109
Sümeyra Binti Qeys (r.anhə) ........ 116
Havlə Binti Saləbə (r.anhə) ........ 121
Havlə Binti Qeys (r.anhə) ........ 131
Ümmü Varaqa (r.anhə) ........ 136
Ümmü Gülsüm Binti Ukbə (r.anhə) ........ 141
Hind Binti Əmr (r.anhə) ........ 154